www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 may 2016-cı il Çərşənbə axşamı № 95 (6416) Qiyməti 60 qəpik

**Xəbər**

**Bakıda və Gəncədə ər arvadının boğazını kəsdi**

yazısı səh.14-də

## Şuşanın işğal günü ərəfəsində savaş xəbərdarlığı

# PREZİDENTİN CƏBHƏ XƏTTİNDƏN DÜŞMƏNƏ MƏRMİ KİMİ MESAJLARI - "NƏ QƏDƏR GEC DEYİL!.."

Prezident İlham Əliyevin təmas bölgəsinə səfəri Ermənistana "soyuq duş" effekti verəcək; **rusiyalı politoloq:** "Azərbaycan öz hərbi gücünü yenidən dünyaya xatırlada bilər"; Bakı-Ankara hərbi əməkdaşlığının güclənməsi üçün indi daha bir fürsət yaranıb...




yazısı səh.9-da

**Gündəm**

**Mayın 8-də Qarabağda hərbi əməliyyatlar təkrarlana bilər**



Dağlıq Qarabağdakı terrorçular Şuşanın işğal günü "erməni xalqına hədiyyə" etməyə çağırdılar...

yazısı səh.11-də

**"Atəşkəsə Ermənistanın xahişi ilə razılıq verdik" - prezident təmas xəttində işğalçının ağır durumunu anlatdı**

yazısı səh.8-də

**Rusiyadan qorxmalıyıqmı?**

yazısı səh.10-da

**3 may Türkçülük Günü... rəsmiləşsinmi?**

yazısı səh.4-də

**Problemli kreditlərin həcmi gizlədilir**

yazısı səh.5-də

**Hakimiyyət İlqar Məmmədovu niyə azad etmir...**

yazısı səh.6-da

**Ermənilərin növbəti təhdidi**

yazısı səh.13-də

**Kürdəmirin icra başçısının müavini fermerin torpağını mənimsəyib**

yazısı səh.12-də

**Mayda toy etməkdən çəkinməyin...**

yazısı səh.15-də

**Tağı Əhmədov Çovdarovun kamerasına harada yaxalanıb...**

yazısı səh.12-də

**Saxta gün eynəkləri insanları kor edə bilər**

yazısı səh.15-də

**"Kupça"ların verilməsində yenilik...**

yazısı səh.2-də

*Vəkil:*

**"Vəli Əsgərovun əlində çox ciddi faktlar var"**

yazısı səh.12-də

## Ermənipərəst türk jurnalistin arxasındakı adam bilindi - Elnur Aslanov...

"Milliyet"in yazarı Nagehan Alçının adının XİN-in "qara siyahı"sından çıxarılması o zaman PA-da şöbə müdiri işləyən E.Aslanovun ciddi səyi nəticəsində mümkün olub; ötən həftə Bakıya ilk dəfə gələn jurnalist nələr yazıb?

yazısı səh.5-də



*Həmid Herisçi:*

**"Sağ qalmış sonuncu mogikanam...."**

yazısı səh.3-də



*Etibar Məmmədov:*

**"İndi mənim cəbhəyə getməyim işlərə kömək etməz, əksinə, mane olar"**

yazısı səh.6-da



Aysel Manafova

**Obama Trampla görüşən azərbaycanlı gözəldən danışdı, "Yeni Müsavat" o qızı tapdı ...**

yazısı səh.7-də



# Prezident cəbhə bölgəsində bərpa işlərinə 6 milyon manat ayırdı

**Prezident İlham Əliyev erməni silahlı qüvvələrinin Ağdam və Tərtər rayonlarını intensiv atəşə tutması nəticəsində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

"Report"un xəbərinə görə, sərəncamda bildirilib ki, 2016-cı ilin aprel ayının ilk günlərindən başlayaraq erməni silahlı qüvvələri Ağdam və Tərtər rayonlarının təmas xəttinə yaxın olan yaşayış məntəqələrini iri çaplı silahlardan və artilleriya qurğularından intensiv atəşə tutublar. Nəticədə mülki əhalidən 6 nəfər həlak olub, 26 nəfər yaralanıb, 445 evə, 5 məktəbə, 2 tibb məntəqəsinə, 2 uşaq bağçasına, digər sosial və inzibati binalara ciddi ziyan dəyib. Hazırda düşmən güllələrinin və mərmilərinin törətdiyi fəsadların aradan qaldırılması ilə bağlı müvafiq tədbirlər görülür.

Erməni silahlı qüvvələrinin Ağdam və Tərtər rayonlarını intensiv atəşə tutması nəticəsində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Ağdam və Tərtər rayon icra hakimiyyətlərinin hər birinə 3 milyon manat olmaqla cəmi 6 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etmək tapşırılıb.

# "Kupça"ların verilməsində yenilik...

**Prezident İlham Əliyev "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanuna edilən dəyişiklikləri təsdiqləyib. Dəyişikliklərə görə, əmlakın qeydiyyatı və digər əməliyyatların müddəti azaldılıb.**

Belə ki, qanunun 9.2-ci maddəsinə görə, daşınmaz əmlakın qeydiyyatı və çıxarışın verilməsi üçün maksimum müddət 20 gündən 10 iş gününə endirilib. Bununla yanaşı, qeyd edilib ki, qeydiyyat prosesi üçün zəruri olan mərzçəkmə və inventarlaşdırma işlərinin aparılması ilə əlaqədar bu müddət 5 iş gününədək uzadıla bilər.

Qanunun 14.2-ci maddəsinə nəzərdə tutulan dəyişikliklərə görə isə qeydiyyat prosesi zamanı qeydiyyat orqanının, yəni Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin sorğularına daha tez cavab vermək lazım gələcək. Belə ki, hazırda qanuna əsasən şübhə doğuran sənədlərə dair müvafiq dövlət orqanlarına göndərilən sorğulara 10 gün müddətində cavab verilməlidir. Dəyişikliklərdən sonra isə bu müddət 7 günə endirilib.

Nəhayət, qanunun 20.3-cü maddəsində nəzərdə tutulan dəyişikliyə görə, ipotekanın qeydiyyatı üçün maksimum müddət 5 iş günündən 3 iş gününə endirilib.(fins.az)

# Mərkəzi Bank bankların "məzənnə" təklifini qəbul etmədi




**Azərbaycan bankları Mərkəzi Banka (AMB) manatın məzənnəsinin dəyişməsi üçün konkret dəhliz müəyyən etməyi təklif ediblər. Bu barədə fins.az-a açıqlamasında Azərbaycan Banklar Assosiasiyasının sədri Zakir Nuriyev məlumat verib.**

Onun sözlərinə görə, belə bir intervalın olması banklara gələcəkdə atılacaq addımları müəyyən etməkdə, işləri planlaşdırmaqda kömək olardı. Özü də bu, banklardan çox onların müştərilərinə lazımdır.

Bununla belə, AMB bankların bu təklifi ilə razılaşmayıb. Zakir Nuriyev deyir ki, qurum öz qərarını manatın "üzən məzənnə" rejimində olması ilə izah edib. Yəni milli valyutanın məzənnəsi dollara tələbatın artıb-azalmasından asılı olaraq dəyişdiyi üçün bu məsələdə konkret dəhlizin müəyyən edilməsi mümkün hesab edilməyib.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# İşğalçı rejim Azərbaycan ordusunun manevrlərindən təşvişə düşüb



**Dağlıq Qarabağdakı işğalçı ordu Azərbaycan qoşunlarının ön cəbhə xəttində toplaşması ilə bağlı məlumat yayıb.**

Virtualaz.org xəbər verir ki, bu barədə qondarma respublikanın "Müdafiə Nazirliyi"nin bəyanatında deyilir. Bildirilir ki, ön cəbhədə Azərbaycan ordusunun aktiv yerdəyişmələri müşahidə olunur.

Azərbaycan Müdafiə Nazirliyindən isə bununla bağlı virtualaz.org saytına bildirilib ki, Azərbaycanın Silahlı Qüvvələri ölkənin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində sərbəst yerdəyişmə hüququna malikdir.

"Biz üçüncü ölkə, ələlxüsus da Ermənistan qarşısında qoşunlarımızın hərəkəti haqqında hesabat vermək niyyətində deyilik", - Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda vurğulanıb.

# "Azərbaycanda Ermənistan hərbçilərinin meyitlərinin saxlanması barədə məlumatlar yalandır"

**"Azərbaycan tərəfdə altı erməni əsgərin meyitinin olması barədə bizdə heç bir məlumat yoxdur".**

Bunu APA-ya açıqlamasında Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova deyib.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından da APA-ya bildirilib ki, hazırda Azərbaycanda Ermənistan hərbçilərinin meyitlərinin saxlanması barədə məlumatlar həqiqəti əks etdirmir.

"Azərbaycan Respublikası beynəlxalq humanitar hüquq normalarına daim hörmətlə yanaşır və atəşkəsin pozulması nəticəsində həlak olmuş insanların meyitlərinin qısa müddət ərzində repatriasiya edilməsinin tərəfdarıdır", - deyə məlumatda bildirilir.

Qeyd edək ki, aprelin əvvəllərində baş vermiş döyüş toqquşmalarında öldürülmüş altı erməninin meyitinin Azərbaycanda olduğu barədə məlumat yayılıb.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



# Onlayn silah satışı adı ilə dələduzluq edən şəxs tutulub

**Respublikanın daxili işlər orqanları informasiya texnologiyalarından istifadə edilməklə törədilən kibercinayətlərlə mübarizə sahəsində növbəti uğurlu əməliyyat tədbiri həyata keçirib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya bildirilib ki, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşları tərəfindən həyata keçirilən xüsusi əməliyyat nəticəsində instagram və facebook sosial şəbəkələrində saxta profillər vasitəsilə özünü guya onlayn silah satan şəxs kimi təqdim edərək çoxsaylı vətəndaşı dələduzluq yolu ilə aldadaraq onların külli miqdarda pul vəsaitlərini ələ keçirən Şəki rayon sakini Elşən Ağaməmmədzadə saxlanılıb.

Araşdırmalarla müəyyən edilib ki, E.Ağaməmmədzadə instagram sosial şəbəkəsində yaratdığı "arif_memmedov.85", eləcə də "baku_orujie_online" adlı səhifələrdə travmatik və pnevmatik silahların internetdən götürdüyü şəkillərini yerləşdirərək onların satışını apardığını elan edib. Silah almaq istəyən şəxslər online sistemlər vasitəsilə ödəniş edəndən sonra E.Ağaməmmədzadə zərərçəkənlərin pullarını banklarda olan şəxsi hesablarına köçürüb və nağdlaşdıraraq ələ keçirib.

Qeyd edilən fakta bağlı Baş İdarənin İstintaq Şöbəsində cinayət işi başlanılıb.

# Hacı Məmmədovun səhhəti pisləşdi, DTX-dən köçürüldü

**Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) İstintaq təcridxanasında saxlanılan, paytaxtda adam oğurluğu və digər çoxsaylı ağır cinayətlər törədən mütəşəkkil dəstənin başçısı, Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinin sabiq baş əməliyyat müvəkkili, ömürlük azadlıqdan məhrum edilmiş Hacı Məmmədovun səhhətində problem yaranıb.**

Bu barədə «Trend»ə H.Məmmədovun vəkili Afət Qazıyeva məlumat verib.

Vəkil bildirib ki, təcridxanada saxlanılan H.Məmmədov səhhətində yaranan problemlə bağlı Penitensiar Xidmətin Binə qəsəbəsindəki İxtisaslaşdırılmış Müalicə Müəssisəsinə köçürülüb. O, hazırda müəssisədə həkim nəzarətində saxlanılır: "Səhhətində problemlər yarandığından onu müalicə müəssisəsinə köçürüblər. Hazırda Hacı Məmmədov oradadır".

Xatırladaq ki, H.Məmmədov 2005-ci il martın 10-da artıq ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi "Qara kəmər" əməliyyatı nəticəsində mütəşəkkil dəstə üzvləri ilə birlikdə həbs edilib.

2006-cı ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə H.Məmmədov və dəstənin üzvü kimi təqsirləndirilən, həmin vaxt Daxili İşlər Nazirliyi Baş Cinayət Axtarış İdarəsinin rəisi vəzifəsində çalışan general Zakir Nəsirov və bir neçə dəstə üzvü ömürlük azadlıqdan məhrum edilib.

# Bakı və Sumqayıtın bəzi küçələrində nəqliyyatın hərəkəti məhdudlaşdırılır

**"TOUR d'AZERBAİJAN" beynəlxalq velosiped turunun keçirilməsi ilə əlaqədar may ayının 4-də saat 09.30-dan 14.30-dək Dövlət Bayrağı Meydanından Dairəvi yol - Bakı-Sumqayıt şossesi - Masazır - Novxanı - Sumqayıt istiqamətində və Sumqayıt şəhərinin bir sıra mərkəzi küçələrində nəqliyyatın hərəkəti müvəqqəti olaraq dayandırılacaq.**

"APA-Economics" xəbər verir ki, göstərilən vaxtda həmin istiqamətlərə alternativ yollardan istifadə olunması xahiş olunur.



# Hafiz Paşayev "Şərəf" ordeni ilə təltif edildi

**Azərbaycan prezidenti İlham Əliyev Hafiz Paşayevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd olunur ki, Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Hafiz Mir Cəlal oğlu Paşayev "Şərəf" ordeni ilə təltif edilsin.

# Bakıda Avropa Nüvə Tədqiqatları Mərkəzinin toplantısı keçirilir

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və Avropa Nüvə Tədqiqatları Mərkəzinin (CERN) birgə təşkilatçılığı ilə Bakıda ilk dəfə CERN təcrübəsinin toplantısı keçirilir.**

Nazirlikdən APA-ya verilən məlumata görə, 5 gün davam edəcək NA61/SHINE və NA49 təcrübələrinin kolaborasiya toplantısında CERN üzvləri, o cümlədən Azərbaycan, Amerika, Rusiya, Almaniya, Fransa, İsveçrə, Polşa və digər Avropa ölkələrinin alimləri iştirak edirlər.

Beynəlxalq konfrans CERN-də fəaliyyət göstərən "NA61/SHİNE" təcrübəsinə eləcə də "NA49" təcrübəsində toplanmış məlumatların analizinə həsr edilib.

Konfransın gedişatında aparılan təcrübələr haqda geniş məlumat veriləcək, son elmi nəticələr müzakirə ediləcək.

Bu istiqamətdə aparılan müzakirələrdən sonra gələcək elmi nəticələrin nəşr olunması ilə bağlı qərarlar qəbul ediləcək.

Konfransın ilk günündə iştirakçılara Azərbaycanda yüksək texnologiyalar sahəsinin inkişafı üzrə həyata keçirilən islahatlar, o cümlədən nüvə texnologiyalarından dinc məqsədlərlə istifadəsi üçün Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində yaradılmış "Milli Nüvə Tədqiqatları Mərkəzi" QSC-nin fəaliyyət istiqamətləri, perspektiv planları haqda ətraflı məlumat verilib.

Qeyd edilib ki, Milli Nüvə Tədqiqatları Mərkəzi yeni yaranmasına baxmayaraq, bu sahədə əvvəlki illərdə kifayət qədər təcrübə qazanmış Azərbaycan hazırda CERN, Birləşmiş Nüvə Tədqiqatları İnstitutu və digər qurumlarla əməkdaşlıq edir.

**Xəbər verdiyimiz kimi, ANS TV-nin ABŞ bürosunun rəhbəri Qənirə Ataşova ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Mark Tonerə Ermənistan silahlı qüvvələrinin cəbhə bölgəsində hücumlarının fəsadlarını əks etdirən fotoşəkilləri nümayiş etdirib.**

# Qənirə Ataşovanın yenə ingilis dili problemi-kim nə deyir?

Amma bu mətbuat konfransında Q.Ataşovanın verdiyi sual ötən dəfə olduğu kimi yenə qalmaqal yaradıb. Buna səbəb isə həmkarımızın ingilis dilində qüsurlu danışığı olub. Sosial şəbəkələrdə və mediada jurnalisti bir ilə yaxındır Amerikada olmasına baxmayaraq, ingilis dilini lazımi səviyyədə öyrənməməkdə qınayırlar. Amma buna əks fikirdə olanlar Q.Ataşovanın cəsarət və vətənpərvərlik nümayiş etdirərək, Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırdığını bildirir.

Maraqlıdır, artıq ikinci dəfədir ki, baş verən "Ataşova krizi" barədə ANS rəhbərliyi nə düşünür? Əməkdaşlarının Amerikadakı fəaliyyətindən razıdırmı?

**ANS prezidentinin köməkçisi Mais Məmmədov bildirdi ki, Q.Ataşova çox yaxşı jurnalistdir və bu tənqidləri haqq etmir:** "Amerikada başqa jurnalistlər də var, amma Qənirə etdiyini etmirlər. İndi dili bir az zəif bilmiş ola bilər. Amma vaxt lazımdır ki, onu da öyrənsin və öyrənəcək. İngilis, fransız dillərinin bəzi incəlikləri var ki, onu öyrənmək vaxt aparır. Dərhal başına daş salmaq lazımdır? Biz ona "çox sağ ol" deməliyik ki, Obamadan müsahibə alan yeganə azərbaycanlı jurnalistdir.



**Mais Məmmədov:** "Biz ona "çox sağ ol" deməliyik"



**Arif Əliyev:** "Bu cəsarət təmiz ingilis dilində nümayiş etdirilsəydi, daha yaxşı olardı"

Bizdə kimsə yaxşı bir iş görəndə dərhal çalışırlar ki, qara rəngə boyasınlar. Nəyə lazımdır, nə üçün edirlər bunu? Mən heç ANS-də işləməsəydim də, bu faktla fəxr edərdim ki, mənim həmkarım kimlərlə danışır, kimlərə suallar verir, cavablar alır. Pisdi? Xeyr, yaxşıdır axı. Azərbaycanlı olaq, özümüzün uğurumuza sevinək".

**"Qənirə Ataşova ingilis dilini öyrənməkdə davam edir" sualına cavabda M.Məmmədov dedi ki, xanım jurnalist ingilis dili kursunda olub və hazırda da kursa getməyə davam edir:** "Müəllim də tapıb, öyrənməyə davam edir. Siz başa düşün, onu ora biz göndərmişik. O, yaxşı işçidir, biz onunla fəxr edirik. Amma olur da. Cümləni düz qurmayıb, sualı başqa cür verib. Ora onun üçün yeni ölkədir. 6-7 aydır ora getməsi. Ona demək lazımdır ki, Qənirə, uğurlar. Sosial şəbəkədəki müzakirələrə çox fikir vermək lazım deyil. Onun fəaliyyəti ilə bağlı ancaq müsbət sözlər eşidirik. Səfirlikdən bizə təşəkkür gəlir ki, çox sağ olun, olduqca aktiv müxbiriniz var".

**Yuxarıda da qeyd etdiyimiz kimi, sosial şəbəkədə tanınmış jurnalist və ekspertlərin də bu məsələ ilə bağlı maraqlı fikirləri var. Onlardan biri də media üzrə mütəxəssis Seymur Kazımovdur. S.Kazımov mövzu ilə bağlı aşağıdakıları yazıb:** "İnsan çalışdığı ölkənin dilində normal sual verə bilmirsə, qarşısındakına peşəkar olduğunu necə göstərə bilər?!"

**İqtisadçi Zöhrab İsmayıl isə hesab edir ki, ümumiyyətlə, ingilis dili problemi yalnız Qənirə Ataşovaya məxsus deyil, 100 minlərlə ali təhsilli azərbaycanlı bu problemdən əziyyət çəkir:** "Əcəba, 10 il orta məktəbdə ingilis dili dərsi alan, sonra da ingilis dilindən "uğurlu imtahan verib" ali məktəbə qəbul olunanlar niyə ingilis dilində danışa bilmir? Aydın məsələdir ki, məktəblərdən qazanılmalı olan bünövrə olmadan xarici dili mənimsəmək çox çətindir. Lap Amerikada ol, müəyyən bazan olmasa kommunikasiya qura bilmirsən və dili təkmilləşdirmək imkanından məhrum olursan. Bəs biz niyə ingilis dili öyrənmək zülmü çəkirik? Necə olur ki, 1-2 illik kurslarla ingilis dilini öyrənmək olur, amma məktəblərimizdə 10 ilə mümkün olmur? Bircə səbəb var: təhsilimiz keyfiyyətsizdir! Bundan danışmaq lazımdır".

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev düşünür ki, bu, çoxşaxəli məsələdir. Onun fikrincə, Q.Ataşovanın cəsarət nümayiş etdirməsi əlbəttə ki, yaxşıdır və təqdir olunan haldır:** "Belə mötəbər tədbirdə sual vermək imkanı qazanmaq və bu sualı səsləndirmək müsbət haldır. Amma bu cəsarəti təmiz ingilis dilində nümayiş etdirsəydi, daha yaxşı olardı. Xaricdə işləyən jurnalistlər xüsusi hazırlıq keçirlər. Dil hazırlığı onun ən önəmli sahəsidir. Bu günə qədər dili bilən, amma cəsarətli jurnalist olmayıb. Cəsarət yaxşı keyfiyyətdir".



**A.Əliyev hesab edir ki, konkret bu halda nəticəni birbaşa qiymətləndirmək çətindir. Müsahibimizin sözlərinə görə, nəzəriyyədən çıxış edərək belə halların ölkənin daxilində yüksək qiymətləndirildiyini demək mümkündür:** "Amma Qərb jurnalistləri üçün cəsarətin elə də böyük anlamı yoxdur. Onlar üçün dillə bağlı olan qüsurlar daha çox yadda qalır. Kənarda bir cür qarşılanır, daxildə başqa cür. Bizdə də avstraliyalı jurnalist Azərbaycan dilində bərbad danışaraq cəsarətli bir sual versəydi, onun cəsarəti yox, sualı necə səsləndirməsi müzakirə edilərdi".

"Yeni Müsavat" xatırladır ki, daha öncəki qalmaqal zamanı ANS rəhbərliyi Q.Ataşova üçün tərcüməçi ayrıldığını açıqlamışdı. "ABŞ Dövlət Departamentinin adıçəkilən mötəbər mətbuat konfransına müəmmalı səbəbdən ANS-in tərcüməçisi daxil ola bilməyib və Qənirə Ataşova Azərbaycan üçün çox vacib olan sualı bacardığı kimi verib". Bu, ötən ilin dekabr ayında Q.Ataşovanın Con Kirbiyə sual verərkən yaşadığı çətinliyi şərh edən ANS TV-nin Xəbərlər Xidmətinin baş redaktoru Xanım Yadigarlının açıqlaması idi.

❑ **Sevinc TELMANQIZI**

# Həmid Herisçinin cüt beşi-55

# "Sağ qalmış sonuncu mogikanam...."

## "Yazıçı ya dahi olmalıdır, ya da, ümumiyyətlə, əlinə qələm götürməməlidir"

**Tanınmış publisist Həmid Herisçinin 55 yaşı tamam oldu. "Nekroloq, "Əli. Nino. Bakı", "Solaxay" adlı irihəcmli romanların, "Konspiroloq", "Portretlər", "Gecə kanalı" publisistik yazılardan ibarət kitabların, bir çox hekayələrin müəllifi Həmid bəylə həmsöhbət olduq.**

**- Həmid bəy, geridə qoyduğunuz illərdən razısınız?**

- Belə deyək də-bir yox, bir neçə ömrüm var. Bunların içərisində ən qiymətlisi Güney Azərbaycan inqilabçıları ilə sıx əlaqə və onlarla bağlı xatirələrimdir. Qısası, Təbriz fədailəri əhatəsində böyümüşəm. Tale tərəfindən bu, mənə bir hədiyyədir. Ona görə çox məmnunam.

**- 55 yaşlı Həmid Herisçi unudulub, yoxsa daha çox gündəmdədir?**

- Daim gündəmdə olmuşam, hazırda da belədir. "Simurq quşu" kimiyəm. Yenidən dirilməyi bacarıram. Olub ki, mədəniyyətə, ədəbiyyata tam yeni mövzular gətirmişəm. Ədəbiyyatımızda zaman-zaman yeni ilklərə imza atmışam. Buna görə özümü xoşbəxt sayıram. Özümü "Səməndər quşu" bilirəm. Məncə, müasir dövrün yazıçısı belə olmalıdır. Yəni hərtərəfli. İstər iqtidar, istərsə müxalifət mətbuatı ilə daim sıx əməkdaşlığım olub. Ziddiyyətlərin üzərinə qalxmağı daim bacarmışam. Hazırda ədəbi cameəyə postinsan nəzəriyyəsini təqdim etmişəm. İstər hekayələrimdə, istərsə də romanlarımda bu mövzunu işləyirəm. Postinsan fövqəlinsan deməkdir əslində. Çox şanslıyam ki, müasir dünya ədəbiyyatının əsas trentlərindən sayılan postinsan mövzusunu ədəbiyyatımıza gətirmişəm. O, ədəbiyyatımız qarşısında yeni üfüqlər açır. "Solaxay" romanım gələcək insanın-postinsanın manifesti də sayıla bilər. Son zamanlar dövrü mətbuatda çap etdiyim hekayələrim böyük maraqla qarşılanıb, iri həcmli icmalla mətbuatı silkələyib.



**- Sizin üçün indiyə qədər qeyd etdiyiniz doğum günlərindən hansı daha çox yaddaqalan olub?**

- Çalışmışam doğum günümü həmişə tək qeyd edim. Çoxdankı adətimdi - doğum günü adətən tək-tənha elə özümlə görüşüb danışaram... Amma bu dəfə tək keçirməyə qoymadılar. Əsəd Cahangir və Sayman Aruz qoşuldular mənə, tənhalığımı pozdular. Bilgəhə Sayman Aruzun bağına getdik. Güneylilər çox vaxt nakam olublar. Çoxları istəyib ki, Bakı ətrafında özlərinə bir bağ salsınlar. Bu arzuyla bağ salan yüzlərlə güneyli görmüşəm. Axırıncısını- Sayman Aruzu ötən ad günümdə gördüm. Adətən o cür güneyli bağlarının bütün ağacları, bitkiləri neyçünsə həmişə sonralar quruyardı. Doğum günümdə bax bu cür niskilli anlar yaşadım...

**- Qeyd etdiniz ki, ad günlərinizi tək keçirməyi sevirsiniz. Səbəb?**

- Allahla söhbətimi qiyamət gününə saxlayanlardan deyiləm. İnsanın Allahla söhbəti daha əhəmiyyətlidir. Öz taleyimlə bağlı Allahla söhbətləşməyi çox sevirəm. Həyatımın bu dövründə bəndə ilə söhbətlər mənə o qədər də xoş gəlmir. Göz yaşlarımız Allah üçündü, bəndələr üçün deyil.

**- Həmid Herisçi tarixdə necə qalacaq?**

- Məncə, birinci kimi qalacaq. Gizlinlərin üstünü açan, yeni mövzular gətirən, gizli xəzinələri tapan. Yaxın günlərdə ANS-də möhtəşəm bir layihəm başlayır. İlk buraxılışı ölməzlik haqqında olacaq. Həyatımda çətinliklər də çox olub. Şimali Azərbaycanda qərib olmuşam. Çünki burada ümumazərbaycan təfəkkürü zəifdir. Bu təfəkkürdə olanlara çəp baxırlar. Şimallılar azərbaycanlıdan çox, şərurlu, qarabağlı, şamaxılı, gəncəli olmağı sevirlər. Mənim kimi bütöv azərbaycanlılara həmişə tərs baxırlar. Bu, Şimalda oturuşmuş əyalətçilik təfəkkürü ilə əlaqəlidir. Belə yerlərdə əsl bütöv azərbaycanlılara əsla yer yoxdur. Şimallılar mənə daim təhlükəli yazar kimi baxıblar. Əslində yazıçı elə təhlükəli olmalıdır. Hesab edirəm ki, yazıçı üçün ən vacib xüsusiyyət budur. Təəssüf ki, bugünkü yazıçılarımız təhlükəli deyillər. Xüsusən də gənclər. Yazıçı ya dahi olmalıdır, ya da ümumiyyətlə, əlinə qələm götürməməlidir. Təəssüf ki, dahi olmayanlar bu gün əllərinə qələm götürürlər. Nəticədə ədəbiyyatımızda bugünkü mənzərə yaranıb.

**- Göstərdiyiniz xidmətlərin qiymətini almısınız?**

- Qiymətləndirilməkdən özüm həmişə qorxmuşam. Çünki qiymətləndirilmişi satmaq çox asandır. Şimali Azərbaycanda yerliçilik çox çiçəklənib, lap qol-budaq atıb. Mən isə lokal deyiləm, bütövəm- anam bakılı, atam təbrizlidir. Qanıma Vahid Azərbaycan iksiri, məcunu hopub. Əyalət təfəkkürlülərlə həmişə münaqişədə olmuşam. Təkcə keçmişi deyil, gələcəyi də çox sevirəm. Bununla da çoxlarından seçilirəm. Axı biz azərbaycanlılar elə hey keçmişdən dəm vurar, çox vaxt gələcəyi unudarıq. Şükür, mən bu milli azarımızdan kənardayam. Gələcəyə də səyahət etməyi bacarıram.

**- İndiyə qədər bir çox yerlərdə çalışmısınız. Ən yaddaqalan iş yeriniz hansıdır?**

- Gəncliyimdə Azərbaycan Demokrat Firqəsinin, "Tudə" partiyasının üzvü olmuşam. Atam da inqilabçı olub. Ən çox yaddaqalan dövr bax o dövrdür. 70-ci illərin sonlarında İran şahının devrilməsi, məxfi inqilabı fəaliyyət mənə çox təsir edib. Əvvəl şah rejiminin çökməyini gördüm, sonra SSRİ-nin. Qorxuram bu itkilərə, çöküşlərə bir yenisi də əlavə olsun... Həyatımın məzmununu bax bu silkələnmələr təyin edib. O vaxtlar da bütün yaxın silahdaşlarımı itirdim. Hərdən mənə elə gələr ki, sağ qalmış sonuncu mogikanam. Məsəl üçün, bizim ailəvi bir dostumuz vardı Güneydə. Gizli inqilabi işlə məşğul olardı. Uşaqlarına da atam kimi Əli, Həmid adlarını vermişdi. 1983-də onu güllələdilər. Ancaq övladları Həmid, Əli qalır indi də... Bax bu Həmidlə çox... lap çox görüşmək istərdim... Hardadı, görəsən, o indi? Amerikada? Almaniyada?... Həyatımda qorxulu anlar həddindən artıq çox olub. Daim ülgüc üzərində gəzmişəm... Qısası, daim tarixin növbəti bir dövrünü yola salıb, əvəzində sağ qalmağıma təəccüblənmişəm. Qollarımı çırmalayıb həyatımın yeni səhifəsini açmışam... Arzum budur ki, bu dövrün də sonuncu mogikanı olmayım... Əvvəllər köhnə dostlarımı siyasət ovlayırdı, indi bunu məişət edir... Dostlarımı itirməkdən yorulmuşam daha... Qorxuram təzə dostluqlara başlamağa... Elə bilirəm bu insanları da çox tez itirəcəyəm... Sizin qəzetdə çalışmasam da, özümü "Yeni Müsavat" kollektivinin üzvü sayıram. Rauf Arifoğlu, Azər Ayxan mənə və həyat yoldaşıma daim dəstək olublar. "Yeni Müsavat"çılarla bir səngərdə, bir cəbhədə olduğuma görə özümü xoşbəxt hiss edirəm.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 95 (6416) 3 may 2016

# 3 may Türkçülük Günü... rəsmiləşsinmi?

**Bu gün 3 may Türkçülük Günüdür. Dünya türklərinin hər il qeyd etdiyi bu günün tarixi 1942-ci ildən başlayır. Həmin dövrdə qardaş ölkədə dövlət məmurları arasında kommunistlərin sayı kifayət qədər çox idi. Bu silsiləyə yalnız baş nazir Şükrü Saracoğlu aid deyildi.**

1945-ci ilin 29 martınadək davam edən məhkəmə prosesində Türkiyə siyasətinin 23 önəmli şəxsi haqqında "vətənə xəyanət" maddəsi ilə həbs qərarı çıxarılır. Zeki Velidi Togan, Alparslan Türkeş, Nihal Atsız, Reha Oğuz Türkkan, Cihat Savaş Fer, Nurullah Barıman, Fethi Tevetoğlu, Nejdet Sançar, Cebbar Şenel və Cemal Oğuz Öcal kimi milli düşüncəli insanlar həbsxanalarda ağır işgəncələr görürlər. Onlar vəkillərinin müraciətləri əsasında iki il sonra bəraət alırlar. 1954-cü ildən etibarən bu gün Nihal Atsızın təşəbbüsü ilə Türkçülük Günü kimi qeyd olunmağa başlayıb. Alparslan Türkeş Milliyyətçi Hərəkat Partiyasını qurandan bu günə qədər 3 may daha geniş şəkildə keçirilir.

Bu gün ölkəmizdə də kifayət qədər populyardır. Xüsusilə türkçülük ideyaları qatı millətçi olan sabiq prezident Əbülfəz Elçibəyin sayəsində cəmiyyətimiz arasında geniş yayılıb. 1992-ci ilin 3 mayında Bakıya səfərə gələn türk nümayəndə heyətinin tərkibində olan Türkeş bir milyon insanın qarşısında Elçibəylə bərabər çıxış edərkən, toplantıya qatılanları Bozqurd işarəti ilə salamlayıb.





**Fərəc Quliyev:** "Bu məsələyə ciddi yanaşmağımız Azərbaycana yalnız divident gətirər"
**Sabir Rüstəmxanlı:** "Bu günün qeyd olunmasının tərəfdarıyam"

Bu günün önəmi nə qədər yüksək olsa da, hazırda ölkəmizdə geniş şəkildə qeyd olunmur. Nə iqtidar, nə də müxalif düşərgə 3 maya maraq göstərmir. Sanki bu günün qeyd olunması ilə bağlı tərəddüdlər var. Səbəbi isə müəmmalıdır.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev iqtidar və müxalifət düşərgəsinin Türkçülük Gününə olan biganə münasibətinin doğru olmadığını söylədi:** "Bir millət olaraq biz bu günü qeyd etməyi bacarmalıyıq. Dünyada böyük imperiya yaradan türklər hara getdilərsə, oranın etnoslarının dinlərinə, adət-ənənələrinə hörmətlə yanaşdılar. Azərbaycanda azərbaycançılıq ideologiyasına söykənən xətt əsas götürülür. Bunun kökündə də türkçülük dayanır. Millətçiliyimiz heç zaman etnik olmayıb. Bayrağımızda da türkçülük özünü açıq şəkildə büruzə verir. Nədənsə ölkəmizdə başqa etnoslar milli kimliklərini daha çox qeyd edirlər. Bizə gəldikdə isə hər kəs qısqanclıqla yanaşır. Beynəlxalq səviyyədə də bu məsələyə ciddi yanaşmağımız Azərbaycana yalnız divident gətirər. Türk dövlətlərinin son Qarabağ savaşındakı mövqelərini götürsək, onların reaksiyalarının necə olduğunun şahidi olarıq. Reaksiyaların hamısı milli kimliyimizdən qaynaqlanırdı. Avropada hamı bloklaşır. Hətta "Avropa Evi" belə düzəldiblər. Onlar müxtəlif dinlər, etnoslardır. Bir etnosa sahib olan bizlər niyə belə bir ev qurmayaq? Biz bu günü qeyd etsək, dünyanın müxtəlif yerlərindən olan türklər də ölkəmizə gələr. Razıyam ki, bu məsələyə iqtidar və müxalifət tərəfdən adekvat münasibət yoxdur. Bu, sizli-bizli hamımızı təəssüfləndirir".

**Deputat Azərbaycanda bu günün qeyd olunması ilə bağlı olan tərəddüdlərə də toxundu:** "Düşünürlər ki, bu günlə bağlı tədbir keçirsək, başqa dostlara, dövlətlərə toxunar. Düşünmürlər ki, ölkəmizdəki etnosların qorunması türkün qüdrətinə bağlıdır. Tarixən türk dünyasına hücum edənlər türklər zəif olanda təkcə onları yox, etnosları da əziblər. Amma türk güclü olduqda, bizimlə bərabər başqa etnoslar da çiyin-çiyinə dayanıblar. Öz kimliyini gizləmək ki, başqası qısqanar, bu doğru deyil. Millətini insan doğulanda seçmir. Başqalarının hörmətini qorumaqdansa, öz millətini başda tutmaq daha doğrudur. Kiməsə xoş gəlmək normal deyil. Türk olduğumuzu qabartmalıyıq. Siyasi hədəflərə görə bu məsələdən yan keçənlər də yanılırlar. Bu məsələyə nə qədər haqq qazandırmağa çalışsalar da, haqq vermirəm".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı Türkçülük Gününü hər il qeyd etdiklərini bildirdi:** "O bayramı uzun illərdir qeyd edirik. Bu il də Dünya Azərbaycanlıları Konqresi və Turan Gənclər Birliyi bu günü keçirəcək. Bu bayram rəsmləşdirilməyib. Nə Türkiyədə, nə də Azərbaycanda. Ona görə kimdənsə bunu tələb etmək doğru deyil. Amma biz böyük yerlərdə coşqu ilə 3 mayı indiyə qədər qeyd etmişik. Dünyanın müxtəlif yerlərindən də qonaqlarımız olub. Alparslan Türkeş, Nihal Atsızın adı ilə bağlı olan, 1994-cü ildən bəri təxminən geniş şəkildə qeyd olunan, türk tarixi ilə bağlı olan bu günün qeyd olunmasının tərəfdarıyam".

❑ **Cavanşir ABBASLI**

# 9 mayı bayram etməliyikmi...

## Zahid Oruc: "Bu, faşizm üzərində qələbə çalan hər bir xalqın bayramıdır"

**Qarşıdan 9 may Qələbə Günü gəlir. Faşizm üzərində qələbə Azərbaycanda da illərdir qeyd edilsə də, ictimaiyyətdə bu günə münasibət birmənalı deyil.**

Öncə qısa bir tarixə nəzər salaq:

1941-ci ilin iyununda sovet Azərbaycanı SSRİ-nin tərkibində İkinci Dünya müharibəsinə cəlb olunub. Tarixi faktlara görə, müharibənin ilk günlərində Azərbaycanda 4 mindən çox oğlan və qız faşizmə qarşı vuruşmaq üçün könüllü surətdə cəbhəyə getməkdən ötrü hərbi komissarlıqlara müraciət edib. Avqust ayına qədər təxminən 123 min nəfər xalq qoşunu dəstələrinə yazılıb. 1941-ci ilin sonunda xalq qoşunu dəstələrində 187 min nəfər döyüşçü vardı. Onlardan 30 min nəfərdən çoxu qadınlar olub. Ümumilikdə isə müharibə illərində Azərbaycan döyüşən cəbhəyə 40 mini könüllü olmaqla, 600 minə yaxın oğlan və qız göndərib. Onlardan isə 300 minə yaxını cəbhədə həlak olub.

Müharibədə fərqlənən 130-a yaxın həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 30 nəfər Şərəf ordeni, 170 min Azərbaycan əsgər və zabitləri isə SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edilib.

Bütün bu faktlar səbəbindən illərdir Azərbaycanda da mayın 9-u faşizm üzərində qələbə günü kimi qeyd edilir. Hesab olunur ki, SSRİ-nin qalib gəlməsində Bakı neftinin, ziyalılarımızın və ümumilikdə xalqımızın böyük yardımı olub.

Lakin ictimaiyyətdə bunun əksini düşünənlər də var. Onlar isə hesab edirlər ki, bu, rusların bayramıdır və düşmənimiz olan ermənilərə yardım edən rusun bayramını keçirmək doğru deyil.

Bu il isə vəziyyət bir qədər də fərqlidir. Aprel ayından etibarən Qarabağda savaş şiddətlənib. 2-5 aprel tarixlərində şəhidlər vermişik ki, onların da 40 mərasimi elə 9 may ərəfəsinə düşür.

Bəs belə bir məqamda bu bayramın hansı formada keçirilməsi doğru olar?

**Məsələ ilə bağlı musavat.com-a deputat Zahid Oruc danışıb. O bildirib ki, 9 may faşizm üzərində nailiyyətə xidmət edən hər bir xalqın bayramıdır:** "Burada hansısa bir inkarçılığa yer yoxdur. Mübahisə etmək olar. Ancaq 26 milyon insanın həyatını göz önünə gətirərkən, orada yarımçıq qalmış həyatlar fonunda dünyanı bürüməyə hazır olan faşizm epidemiyasının qarşısının alınmasını dəyərləndirmək lazımdır. Belə olan təqdirdə burada ayrı bir məqama yer qalmır. Ötən on illər ərzində Azərbaycan xalqı həmin müharibədə iştirak edən igid oğullarının şücaətini qeyd etməklə, bunu Bakının qorunması kimi dəyərləndirməklə yanaşı, ölkəmizin hazırda məruz qaldığı işğaldan da azad olunmağını arzulayıb. Biz də həmin kişilərin övladlarıyıq. Qalib əsgərlər bizim millətin də övladlarıdırlar. 9 mayda dörd günlük müharibənin qalib şəhidlərinin 40 mərasiminin olması həmin tədbirə əlavə xarakter verir. Əlbəttə, biz ildönümləri keçirən zaman ermənilər tərəfindən işğal edilən torpaqlarımızın da hamısının azad olunmasını arzulayırıq və gözləyirik. Düşünürəm ki, cənab prezidentin bugünlərdə səngərdə olması, əsgəri ilə çiyin-çiyinə addımlaması, generallarla birlikdə hərbi vəziyyəti müzakirə etməsi sübut edir ki, Azərbaycan prezidenti özü döyüşür və bu savaşın içərisindədir".



**Zahid Oruc 9 may Faşizm üzərində Qələbə Gününün rusların bayramı hesab edilməsi ilə bağlı isə aşağıdakıları söylədi:** "Bu kimi fikirləri qətiyyən qəbul etmirəm. Həqiqətən də Ukraynada, Baltikyanı ölkələrdə vaxtilə faşizmlə müttəfiqlik etmək istəyənlərin qəhrəmanlaşdırılması kimi bir yön tutulur. Desovetizasiya adı altına aparılan fəaliyyət bizi tariximizdən və babalarımızın apardığı mübarizədən uzaqlaşdırmaq üçündür. Anlayıram ki, Rusiya 1941-45-ci illər savaşında qalib gəlmiş SSRİ xalqlarının mübarizə və zəhmətini mənimsəmək kimi bir mövqe tuta bilər. Bunun üzərindən yeni geopolitik xəyalların qurulması da mümkündür. Qalib rus əsgəri obrazına 9 may paradı əlavə rəng qatır. Bunlar hamısı başadüşüləndir. Biz də 300 illik tariximizin mühüm bir səhnəsini müasir dövrə daşıyırıq və ondan zövq alırıq. Lakin bu necə rus bayramıdır ki, orada həyatını itirənlər arasında nəinki SSRİ, Fransadan, Polşadan, bütün Şərqi Avropa ölkələrindən insanlar var. Belə olan təqdirdə bu müharibənin üstündən sükutla keçmək, bizi ayrı-ayrı hallarda tariximizdən qoparıb, özünə yem etmək istəyən müxtəlif dairələrin hədəfinə çevirərdi. Hesab edirəm ki, bu gün, misal üçün, Ukraynada 9 mayı qeyd etmək qətiyyən Rusiyaya xidmət sayılmazdı. Rusiya ilə savaş aparmaq üçün tarixən onlarla çiyin-çiyinə dayanılan bütün cəbhələri inkar etmək yanlışdır. Deyəcəklər ki, babalarımız vuruşmayıb? Bəlkə onlara cinayət işi qaldıraq? Bəs elədirsə, bu gün həmin müharibədə iştirak edənlər müxtəlif müavinətlər və ya hansısa dövlət ödənişləri alırlar. Niyə ondan məhrum etmirlər? Müstəqilliyimizin ilk illərində bizdə də belə bir baxışlar var idi. Anti-Rusiya ideologiyası bəzən beyinləri o qədər dumanlandırırsa, adamlar öz varlıqlarını da inkar etmək istəyirlər ki, guya bu, rusa zərbədir. Belə deyil".

Onu da qeyd edək ki, bu il Azərbaycanda 9 May Qələbə Günü kimi qeyd olunacaq. Həmin tarixdə ölkədə qeyri-iş günüdür.

❑ **Əli RAİS**

# Erməniпərəst türk jurnalistin arxasındakı adam bilindi - Elnur Aslanov...

## "Milliyet"in yazarı Nagehan Alçının adının XİN-in "qara siyahı"sından çıxarılması o zaman PA-da şöbə müdiri işləyən Elnur Aslanovun ciddi səyi nəticəsində mümkün olub; ötən ay Bakıya ilk dəfə gələn jurnalist nələr yazıb?



**Geridə qalan aprel ayında ordumuzun Dağlıq Qarabağ ətrafında işğal olunmuş ərazilərimizdə uğurlu əməliyyatı Azərbaycanın dostlarını sevindirdi, düşmənlərini isə yenə yasa boğdu. Qərbdəki ermənipərəst qüvvələrin səsi bu dəfə o qədər də hündürdən eşidilməsə də, təəssüf ki, erməni lobbisinin pulları ilə peydahlanan "sapı özümüzdən olan baltalar" yenə ortaya atıldılar, işğalçı Ermənistan üçün göz yaşları axıtdılar.**

Bu savaşda qardaş Türkiyə Azərbaycana həmişəkindən daha artıq dəstək verdi, hətta müxtəlif siyasi dairələrin maddi təsiri altında olan media da əsasən ordumuzun zəfərini qürurla dünyaya duyurdu. Amma...

Onun adını Azərbaycan ilk dəfə 2008-ci ildə eşidib. Dağlıq Qarabağa...İrəvandan gedən türk jurnalisti kimi..."Milliyet" qəzetinin köşə yazarı Nagehan Alçı əzəli Azərbaycan torpaqlarından hazırladığı "reportajlarla" özünün əsl simasını hələ o zaman ortaya qoymuşdu. İşğal zonasına İrəvandan getdiyi və həm də yazdığı ermənipərəst reportajlarına görə Azərbaycan Xarici İşlər Nazirliyi bəlkə də ilk dəfə türkiyəli jurnalistin adını "qara siyahı"ya saldı, onun Azərbaycana gəlməsi rəsmən yasaqlandı.

Məlumdur ki, "qara siyahı" Azərbaycanın işğal altında olan torpaqlarına Ermənistan üzərindən və ermənilərin dəstəyi, ermənilərin müşayiəti ilə səfər edən xarici jurnalist və diplomatlara, siyasi-ictimai xadimləri, sənət adamlarına şamil edilir.

Əlbəttə, özünə "mən türkəm" deyən bir qadın onun soyundan olan bir toplumun maraqlarını bu cür tapdamamalıdır. İşğal olunmuş qədim yurdumuz Xankəndinə Stepanakert adını xatırladaraq, "Qarabağın baş kəndi" yazan, əsl həqiqətləri erməni lobbisinin paralarına qurban edən jurnalisti xain əməllərinə görə Azərbaycana buraxmamalıydılar. Yada salaq ki, bu praktika təkcə Azərbaycanda deyil, bu tip münaqişələrə cəlb edilən digər ölkələrdə də var.

2013-cü ildə Nagehan Alçının adı gözlənilmədən XİN-in "qara siyahı"sından çıxarıldı. Adətən bu cür məsələlərdə XİN onu əsas götürür ki, statusundan asılı olmayaraq hər hansı bir şəxs işğal olunmuş torpaqlara səfərinə izahat verir, üzr istəyir. Bilinən qədər Nagehan Alçı belə bir yazı qaralayıb, amma üzürü yenə qəbahətindən betər olub...

"Yeni Müsavat"ın əldə etdiyi dəqiq bilgiyə görə, 2013-də Nagehan Alçının adının "qara siyahı"dan çıxarılması o zaman Prezident Administrasiyasının Siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri işləyən Elnur Aslanovun ciddi səyi nəticəsində mümkün olub. Xəbərdə deyilir ki, E.Aslanovun himayəsinə aldığı jurnalistin adının "qara siyahı"dan çıxarılmasına Türkiyədəki diplomatik korpusumuz, dost ölkədə fəaliyyət göstərən Azərbaycanın dostlarına aid bir sıra dərnəklər etiraz da edib. Çünki onlar ermənilər və Ermənistan haqda daima yazılar yazan bir jurnalistin, nəhayət, vicdanın səsinə qulaq asacağına inanmayıblar. Təəssüf ki, E.Aslanovun "təhlili" və "informasiya təminatı" sayəsində anti-Azərbaycan mövqeli bu qadının adı "qara siyahı"dan çıxarılıb. 2014-cü ilin mayında həm də Türkiyədəki bu cür şübhəli fəaliyyətinə görə PA-dakı vəzifəsindən qovulan E.Aslanovun Nagehan Alçını niyə bu qədər israrlı müdafiə etdiyi hələ də bilinmir.

Bilinən odur ki, Nagehan Alçı aprelin 10-da "Azeriler dost, Ermeniler düşman mı?" (http://www.milliyet.com.tr/azeriler-dost-ermeniler-dusman/gundem/ydetay/2224395/default.htm) sərlövhəli yazısı ilə bir daha erməni sevgisini ortaya qoyub. Erməni təxribatı nəticəsində cəbhədə Azərbaycanın dörd bir tərəfinə şəhid tabutları getdiyi bir vaxtda Nagehan Alçı ermənilərin itkilərindən yazan türk mediasını hətta qınayıb da. Onun təkcə sərlövhəyə çıxardığı bu mövqeyi E.Aslanovun "kadrının" dəyişmədiyini görmək üçün kifayətdir. Amma bu da son deyil...

Aprelin sonunda Bakıda baş tutan BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda... Nagehan Alçı da iştirak edib. "Milliyet" yazarı Bakıya ilk dəfə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın təyyarəsində gəlib. Komfort və rahat...

Amma burada da gördükləri onu məmnun etməyib, Bakını Qərbdən "kopyalanmış şəhər" hesab edib, Ərdoğana Azərbaycan rəhbərliyinin diqqətinə isə qısqanc yanaşıb. Yazıda Azərbaycan hakimiyyətinə ünvanlı tikanlı ifadələr işlətməkdən vaz keçməyib.

Amma cızma-qarasında əsas hədəf Bakıdan sonra təyyarəsində bu dəfə Xorvatiyaya getdiyi Ərdoğan olub. Türkiyə prezidentinin Xorvatiyadakı salonda çox isti qarşılanmasını həmkarının dilindən olaraq 'Michael Jackson geldi sanki' ifadəsini işlədib. Türkiyə prezidentinə bu cür münasibətinin Nagehan Alçının adını "qara siyahı"dan çıxaran E.Aslanova nə qədər aidiyyəti olduğunu demək çətindir. Amma onu birmənalı demək olar ki, Nagehan Alçı öz mövqeyini dəyişməyib və yenə qərəzli və ermənіyanlıdır.

Bəs görəsən, E.Aslanov onun ant-Azərbaycan yazılarını oxuduqdan sonra indi nə düşünür? Bizim XİN-in də düşünməsi lazım...

❑ **"Yenì Müsavat"**

# Problemli kreditlərin həcmi gizlədilir

## "Moody's"un hesabatı rəsmi hesabatdan üç dəfə fərqlidir, ekspertlər səbəbləri izah edirlər...



**Ölkədə problemli kreditlərin həcmi təhlükəli həddədir. Ekspertlər və beynəlxalq agentliklər bu həddin rəsmi rəqəmlərdəkindən xeyli fərqli olduğunu vurğulayırlar. Son olaraq "Moody's" beynəlxalq reytinq agentliyi hesabatında Azərbaycanın bank sektorunda problemli kreditlərin xüsusi çəkisini 20 faiz səviyyəsində qiymətləndirib.**

Qeyd edək ki, ötən il baş verən iki devalvasiyadan sonra problemli kreditlərin həcminin artdığı bildirilir. Bank sistemi ciddi təhlükə qarşısındadır. Ekspertlərin fikrincə, problemli kreditlərin yaranmasında bankların kredit siyasəti günahkardır. Yəni banklar xaricdən aşağı faizlə ucuz kreditlər götürürərək, manata çevirir və əhaliyə çox yüksək faizlə verirdi. Bu da onların qaytarılmasında problem yaradıb. Daha sonra baş verən iqtisadi hadisələr bank sektorundakı neqativ halların fəsadlarını ortaya çıxarıb. Onun sözlərinə görə, artıq proses idarəolunmaz hal alıb və bu, bank sektorunun çökməsi ilə nəticələnə bilər. Ekspertlərin sözlərinə görə, problemli kreditlər həll edilməsə, bu, ilk növbədə bank sistemini çökdürəcək, iqtisadiyyatı zəiflədəcək. Proseslərə hökumətin müdaxiləsi olmazsa, bankların böyük əksəriyyəti bağlana bilər.

**Məlumatlara görə, problemli kreditlərə görə birinci yerdə Beynəlxalq Bank gəlir. Ekspert Əkrəm Həsənovun sözlərinə görə, problemli kreditlərin həcmi bir neçə səbəbdən artır:** "Əvvəla, ona görə ki, əhalinin gəlirləri azalır, sahibkarlar müflis olur. Yəni ümumi iqtisadi durum pisləşdikcə əhali biznes kreditlərini qaytara bilmir. Digər tərəfdən, devalvasiya da həlledici rol oynayır. Onun nəticəsində kredit qalıqları artıb və borclular, sadəcə, ödəniş qabiliyyətini itirib. Banklar bunun təsirini azalda bilərdi, əgər güzəştə getsəydilər. Amma getmədilər və nəticədə vəziyyətlərini ağırlaşdırdılar. Təbii, vacib amillərdən biri də bankların özlərində korrupsiya, qeyri-peşəkarlığın hökm sürməsidir. Normal idarəetmə yoxdur. Kimə gəldi, necə gəldi kredit veriblər. Problemli kreditlərin həcmi artdıqca banklara etibar da azalır. Axı banklar öz pullarını deyil, əmanətçilərin pulunu kredit verir və nəticədə batırır. Buna görə də əmanətçilər əmanətlərini geri çəkir".

Qeyd edək ki, Mərkəzi Bankın fevral ayının yekununa əsasən açıqladığı statistikaya görə, ölkədə vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində payı 6,5 faiz təşkil edib. Göründüyü kimi, rəsmi rəqəm "Mood's"un açıqladığı rəqəmdən təxminən 3 dəfə azdır. Yerli ekspertlər də vurğulayırlar ki, ölkədə problemli kreditlərlə bağlı vəziyyət kritik həddədir. Ekspertlər ödənilə bilməyən kreditlərin məbləğinin daha da artacağını proqnozlaşdırırlar. Həmçinin bildirilir ki, Mərkəzi Bank cəmiyyətdəki xofu aradan qaldırmaq üçün ödənilməyən, vaxtı keçmiş kreditlərin məbləğini azaldır.

**Ekspert Rəşad Həsənov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, problemli kreditlərin həcmi sürətlə artacaq:** "Əslində problemli kreditlərin həcmi heç də statistik rəqəmlərdə ifadə olunduğu kimi deyil. Bir çox hallarda banklar tərəfindən, rəsmi qurumlar tərəfindən bu məlumatlar nisbətən yumşaq şəkildə ictimailəşdirilir. Çünki bizim apardığımız müşahidələr, banklarla müzakirələr zamanı məlum olur ki, banklarda problemli kreditlərin həcmi 30 faiz həddindədir. Statistik rəqəmlərin aşağı göstərilməsində məqsəd bankların beynəlxalq kredit reytinqlərində mənfi çəkisinin azaldılmasının qarşısını almaqdır. Eyni zamanda panikanı, ictimaiyyətin hansısa formada kredit ödənişindən imtinasının qarşısını almaq məqsədi güdür. Yəni əslində real vəziyyət daha ağırdır. Proses bundan sonra daha da dərinləşəcək. Baxmayaraq ki, son günlər banklar hansısa formada müştərilərə yeni əməkdaşlıq formaları, yeni şərtlərlə kredit, müəyyən yumşaq kredit siyasəti həyata keçirmək istiqamətində addımlar atırlar. Əvvəlki dövrlərdən də bu məsələ ilə bağlı fikirlərimizi ifadə etmişik ki, yaranmış böhranın nəticələrinin aradan qaldırılması üçün bu sahədə yükü bankların üzərinə bütövlükdə yönəltmək doğru deyil. Bu, bankların imkanları xaricindədir. Son devalvasiyadan sonra ölkədə vətəndaşların təxminən xarici valyuta məzənnəsindən zərəri 4 milyon manata yaxın olub".

**Ekspertin fikrincə, bu yükü, sadəcə, bankların üzərinə yükləmək doğru deyil:** "Banklar bu yükün altından çıxa bilməzlər. Bu yükün vətəndaşın üzərində qalması da doğru yanaşma deyil. Baxmayaraq ki, manatın alıcılıq qabiliyyəti kəskin şəkildə itib, vətəndaşların manatla gəlirləri belə kifayət qədər azalıb. İnsanlar iş yerlərini itirirlər. İxtisarlar gün-gündən artır. Biznesin gəlirliliyi aşağı düşüb, faktiki olaraq bir çox sahələrdə ziyanla fəaliyyət göstərir. Həmçinin sahibkarın, yaxud vətəndaşın üzərinə bu yükü yükləmək də doğru deyil. Hökumət düşünürəm hansısa formada əlini daşın altına qoymazsa və vətəndaşlara yönəlik güzəşt, kompensasiya tədbirləri həyata keçirməsə, qısa müddət sonra kütləvi şəkildə ödənişlərdən imtina prosesi başlayacaq. Bu isə bank sektoru üçün heç də normal inkişaf vəd etmir. Bir məsələ isə ondan ibarətdir ki, bu problemin psixoloji tərəfləri də var. Əgər bir neçə vətəndaş müəyyən çətinliklərə baxmayaraq, bu borcu ödəmək iqtidarındadırsa, artıq psixoloji cəhətdən "mən nə üçün ödəyim?",- deyib ödənişini dayandırır. Bir neçə ay ödəyə bilməyən vətəndaşın borc məbləği şişir, artır. Tədbirlər görülməsə, məhz kredit ödənişi ilə bağlı bank sektorunu çox ciddi problemlər gözləyir".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 95 (6416) 3 may 2016

AMİP lideri Etibar Məmmədov uzun fasilədən sonra "Yeni Müsavat" qəzetinə müsahibə verib. Qarabağ ətrafında baş verənlərdən bəhs edən söhbətimizi təqdim edirik:

# "Mənim cəbhəyə getməyim işlərə kömək etməz, əksinə, mane olar"

## Etibar Məmmədov: "Sülhməramlıların yerləşdirilməsi qarşılığında Dağlıq Qarabağ ətrafındakı rayonların geri qaytarılması Azərbaycana ciddi heç nə vəd etmir"

**- Etibar bəy, Qarabağ cəbhəsində baş verən aprel toqquşmalarından sonra "nə hərb, nə sülh" vəziyyəti mövcud olsa da, hesab olunur ki, qarşıdakı günlərdə vəziyyət yenidən gərginləşə bilər. Siz nə gözləyirsiniz?**

- Hərbi əməliyyatlar hər an başlaya bilər və realdır. Bunu həmişə gözləmək lazımdır. Aprel ayında ümumi situasiyada bir dönüş yarandı. Çünki 1994-cü ildən sonra heç vaxt belə ciddi əməliyyat keçirilməmişdi və ancaq cavab tədbirləri görülürdü. 2 apreldə isə ilk dəfə hərəkət oldu və həmin miqyasdakı hərəkətin nəticəsində uğurlar əldə olunub. Ancaq bunun hərbi əhəmiyyətindən başqa siyasi əhəmiyyəti böyük oldu. Çünki Azərbaycan, nəhayət, qəti şəkildə bildirdi ki, yaranmış status-kvo vəziyyəti ilə barışmaq fikrində deyil və hərəkət etmək iqtidarındadır, buna hazırlığı, imkanları da var. İndi belə bir vəziyyət yaranıb ki, indiyədək Ermənistanı müdafiə edən, bu status-kvonun uzanmasının tərəfdarı olan qüvvələr də başa düşürlər ki, nə isə dəyişməlidir. Ermənistan da bunu başa düşür. Ola bilsin ki, yaxın zamanda vəziyyəti öz xeyrinə dəyişmək üçün nə isə hərəkət etsin. Bununla demək istəyəcək ki, hərbi baxımdan onu heç nəyə məcbur etmək olmaz və havadarları da onlara kömək edə bilər. Mənim fikrim odur ki, elə vəziyyət yaransa, bu dəfə daha çox irəliləmək lazımdır. Ən əsası isə hesab edirəm ki, İranla sərhədi bağlamaq lazımdır. Azərbaycanın İranla sərhədindəki ərazilər erməni işğalından azad olunmalıdır ki, İranla Dağlıq Qarabağın əlaqəsi kəsilsin.



"Qərb adətən, bir həftə kart-blanş verir ki, nə bacarırsınızsa, edin, daha sonra isə təzyiqlərə başlayır"

**- İddialar və xəbərlər var ki, Şuşanın işğal günü böyük savaş başlaya bilər. Adətən ermənilər həmin günü bayram edir, Azərbaycanın bu situasiyanı, sadəcə, müşahidə edəcəyi real görünmür...**

- Həmin günlər var ki, məsələn, aprelin 23-dən sonra, mayın əvvəllərində bunlar nə isə etmək istəyirlər. Azərbaycan Silahlı Qüvvələri belə hərəkətlərə qarşı həmişə hazır olmalıdır. Mənim fikrimcə, hazırdırlar da. Ancaq bundan daha qətiyyətli mövqeni siyasətçilər tutmalıdır. Bizim hərbçilərimiz onsuz da qətiyyətlidir.

**- Rusiya atəşkəsə nail olsa da, tərəfləri masa arxasında oturtmaq üçün israrlı mövqe nümayiş etdirmir. Görünən budur ki, Kremli Azərbaycanın Gömrük İttifaqına qoşulması daha çox maraqlandırır, nəinki işğal altındakı ərazilərin azad olunması. Şimal qonşumuzun Qarabağ siyasəti ilə bağlı nə deyə bilərsiniz?**

- Yox, Azərbaycanın Gömrük İttifaqına qoşulması real məsələ deyil, Rusiya da bunu çox yaxşı bilir və onu istəmir də. Ən əsas məsələ odur ki, Rusiya "həlledici qüvvə olduğunu" hamıya göstərmək istəyir. Bunun da əsasında özünün silahlı qüvvələrini "sülhməramlı" adı altında yeritmək istəyir.

**- Nəyin müqabilində? Ətraf rayonların azad olunması nəticəsində?**

- Sülhməramlıların yerləşdirilməsi qarşılığında Dağlıq Qarabağ ətrafındakı rayonların geri qaytarılması Azərbaycana ciddi heç nə vəd etmir. Çünki Rusiya qoşunlarının yeridilməsi o deməkdir ki, Azərbaycan ərazilərinin qalan hissəsindən birdəfəlik gözünü çəkməlidir. Azərbaycan tərəfi buna heç vaxt razı ola bilməz.

**- Keçmiş prezident Levon Ter-Petrosyan Dağlıq Qarabağa gəldi. Sizcə, ermənilərin planı nədir?**

- Gəlib, görünür, nə isə eləmək istəyirlər. Vəziyyəti öz xeyirlərinə dəyişməyə çalışırlar.

**- Ermənilər güzəştə gedə bilərmi?**

- İnanmıram güzəştə getsinlər.

**- Qərbin baş verənlərlə bağlı hazırkı mövqeyini qənaətbəxş saymaq olarmı?**

- Qərb adətən bir həftə kart-blanş verir ki, nə bacarırsınızsa, edin! Daha sonra isə təzyiqlərə başlayırlar.

**- Necə bilirsiniz, növbəti dəfə böyük hərbi toqquşmalar baş verərsə, Rusiya və Qərb yenə də susacaqmı?**

- Yox, onlar heç vaxt susmayacaqlar. Amma onların susub-susmamağına baxmağa da ehtiyac yoxdur.

**- Etibar bəy, sizcə, Azərbaycanın siyasi qüvvələri hazırkı situasiyada nə etməlidirlər? Məsələn, siz 90-cı illərin əvvəllərində olduğu kimi, cəbhə bölgəsinə getmək, azad olunmuş Lələtəpə yüksəkliyində olmaq istəyirsinizmi?**

- Yox. Mənim cəbhəyə getməyim işlərə kömək etməz, əksinə, mane olar. Özü də təkcə mənim deyil, ümumiyyətlə... İndiki vəziyyətin 90-cı illərin əvvəllərindən fərqi odur ki, indi könüllülər yox, rəsmi qüvvələr ön xətdədir. Məncə, hərbi ilə hərbçilər məşğul olmalıdır, siyasətçilərin işini isə hakimiyyətdə olanlar görməlidir. Digərləri ancaq Azərbaycanın milli mövqeyindən çıxış etməli və ruh verməlidir.

**- Xalqın orduya dəstəyini, dünyaya mesajını çatdırmaq üçün çoxminli Qarabağ mitinqinin keçirilməsinə zərurət varmı?**

- Siz gördünüz ki, ehtiyac olan anda bizim gənclərimiz heç kəsdən icazə almadan öz mövqeyini bildirdi və bu, kütləvi hal aldı, heç kəsi də narahat eləmədilər.

**- Bu arada qısa müddət ərzində torpaqları tərk etmək üçün Ermənistana ultimatum verməyi təklif edənlər də var...**

- Yox. Kənardan çox təklif vermək, fikir söyləmək mümkündür. Kimin ki, əlində vəzifə səlahiyyətləri var, onlar situasiyanı daha yaxşı bilirlər. Nəyisə etmək üçün də ultimatuma ehtiyac qalmır.

**- Etibar bəy, bugünlərdə sosial şəbəkələrdə 90-cı illərin əvvəlləri ilə bağlı bir videokadrlar yayıldı. Türkiyənin indiki prezidenti, keçmiş müxalifət partiyası sədri Rəcəb Tayyib Ərdoğanın Azərbaycandan geri dönəndən sonra etdiyi çıxışdan söhbət gedir. Yəqin izləmisiniz...**

- Bəli, görmüşəm. O vaxt belə bir şey olmuşdu. Türkiyənin o zamankı hakimiyyəti Ermənistana yardım etmişdi. Həmin 100 min ton taxıl real məsələ idi. Ona görə də hakimiyyətin bu addımı həm Azərbaycan tərəfdən, həm də Türkiyənin xalqı tərəfindən ciddi tənqidlərə məruz qalmışdı.

❑ Elşad PAŞASOY

# Hakimiyyət İlqar Məmmədovu niyə azad etmir?

## Mirvari Qəhrəmanlı: "Elə bir şərt qəbul etməlidir ki..."

**REAL sədri İlqar Məmmədovun aprelin 29-da keçirilən məhkəmə prosesində azadlığa buraxılmaması müxtəlif müzakirələrə yol açıb. Çoxlarının azadlığa çıxacağına ümid bəslədiyi REAL sədri barəsində son anda qərarın dəyişdirildiyi fikrinə də rast gəlinir.**

Ən çox müzakirə olunan məsələlərdən biri İ.Məmmədovu hakimiyyətin özünə qarşı bu qədər təhlükəli rəqib hesab etməsinə dair iddialardır. Əgər iqtidar Qərbdən gələn təzyiqləri nəzərə alıb siyasiləri azad edirdisə, o zaman bir sual meydana çıxır: Avropa Məhkəməsi tərəfindən çıxarılan 6 qərarda azadlığı birmənalı şəkildə tələb olunan REAL sədrinə münasibətdə hakimiyyət niyə bu qədər direniş göstərir? Mart ayında 16 siyasi məhbus edildi. Bunların hansı hakimiyyət üçün təhlükə yaratdı ki, Məmmədov da yaratsın?

Çoxları bu qənaətə gəlir ki, hakimiyyət REAL sədri ilə hansısa anlaşmaya getmək istəyir, amma Məmmədov şərtləri qəbul etmir. Çünki o, bu şərtlərin qəbulu sayəsində siyasi karyerasını bitirə bilər.

Hakim dairələrin onu azad etmək üçün tərəddüd etdiyini sezməmək mümkün deyil. Son məhkəmə prosesləri bunu açıq şəkildə göstərdi. Qərarın oxunmasının bir həftə yubadılması bir çox mətləblərdən xəbər verir. Amma görünən odur ki, hakimiyyət son anda onu azad etməkdən vaz keçdi...



İlqar Məmmədov

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı REAL sədrinin həbsdə saxlanılmasının səbəblərini hələ də anlaya bilmədiyini qeyd etdi:** "İlqar Məmmədov savadsız şəxs deyil ki, hansısa bir qanunsuz çağırışlar etsin. O, ölkə, cəmiyyət üçün təhlükə törədəcək şəxs deyil. Halbuki o azad olunsa, dövlətimiz və cəmiyyətimiz üçün daha faydalı olar. Əksinə, buraxılmaması tərəfdarlarını mövcud hakimiyyətə qarşı daha aqressivləşdirir, beynəlxalq aləmdə imicimizə ciddi zərbə vurur. Düşünürəm ki, tərəddüdlər yuxarı deyil, aşağı səviyyədədir. MTN işinə dair bir faktı deyim; bəyəm kiməsə tapşırıq verilmişdi, kimisə döy, yaxud öldür? Bəzən orta ranqlı məmurlar sanki insandan intiqam almaq üçün canfəşanlıq edirlər. Burada şəxsi baxışlar mühüm rol oynayır. Doğrudur, İlqar bəyin azad edilməsi üçün siyasi qərar lazımdır. Sadəcə, bu qərarın verilməsinə də orta ranqlı şəxslər tərəfindən manеə yaradılır. Hazırda heç kəs ölkənin imicinə xələl gətirəcək hərəkətlərə yol verməməlidir. Qərbdə dövlətçiliyimizlə bağlı bir söz deyən kimi, siyasi məhbus məsələsini qarşımıza qoyurlar".

**M.Qəhrəmanlı REAL sədri ilə hər hansı bir anlaşma üçün cəhdlərin edildiyini, lakin onun şərtləri qəbul etməməsini də istisna etmir:** "Şərtlərin irəli sürülməsi mümkün variantdır. Qoyulan şərtlər onun şəxsiyyəti və rəhbərlik etdiyi təşkilatın mənafeyi ilə üst-üstə düşməyə bilər. O elə bir şərt qəbul etməlidir ki, nə özünə, nə də REAL-ın nüfuzuna xələl gətirməsin. İlqar Məmmədov ağıllı, düşüncəli şəxsdir. Gələcəyi yaxşı fikirləşir. Onu nüfuzdan salmaq üçün istənilən şərtin irəli sürülməsi düzgün deyil. Əgər şərtlər qəbul edilən olsaydı, indi İlqar bəy çoxdan qəbul etmişdi. Sadəcə, tutduğu yola uyğun gəlmir. Avropadakı beynəlxalq qurumların hamısı eyni istiqamət üzrə çalışmırlar. Bu baxımdan Qərbin Azərbaycanla münasibətlərinin yenidən soyuqlaşacağını düşünmürəm. Sadəcə, Azərbaycanda elə bir şəxsi siyasi motivlərlə həbs edir, bütləşdirirlər ki, bütün Avropa həmin şəxsdən danışır. Bu fikirlərim İlqar Məmmədova aid deyil. Bu da ölkənin imicinə zərbə vurur. Azərbaycan siyasətində dəyişiklik etməlidir. Bu ölkə hər kəsindir. Güzəştə getməyi bacarmalıyıq".

❑ Cavanşir ABBASLI



# Yeddinci Əhməd küçəsi

**Zamin HACI**
zaminhaci@gmail.com

**Öncə hörmətli oxuculara kiçik izahat verim. Dünənki yazımda bir yerdə "nəqliyyat naziri" sözünün yerinə "ulaştırma naziri" ifadəsi getmişdir, bu mənə məxsus deyil, redaksiya rəhbərliyi tərəfindən məndən soruşmadan edilmiş bir redaktədir. Dilimizə Türkiyə türkcəsindən çoxlu sözlərin alınmasına həmişə tərəfdar olmuşam, ancaq burada işlənən "ulaştırma" sözünü süni şəkildə yaza bilmərəm - ən azından ona görə ki, lüğətə baxmasam bunun nə demək olduğu heç özümə aydın deyil. Üstəlik, bizim türkcədə ulaşmaq sözü tamam başqa məna daşıyır - misal üçün, canavar və çaqqallar ulaşırlar. Redaksiya rəhbərliyindən acizanə xahiş edərdim, belə söz dəyişəndə heç olmazsa mənə xəbər versinlər, soruşan olanda mənasını deyim, yoxsa elə alınır özüm yazdığım sözün mənasını bilmirəm.**

Elə hörmətli oxucularımızdan Xətai rayonu, Əhmədli qəsəbəsində, 7-ci Əhməd küçəsində (düzü, bilmirəm belə ünvan var, yoxsa oxucu da bir qıraqdan mənimlə məzələnmək istəmişdir) yaşayan Qurbanəli Əlizadənin məktubu da dil temasındadır. Qurbanəli bəy yazır: "Sizin 13 aprel tarixli "Arxipelaq Qulaq" yazınızda kommunist sözünün açmasını yazmışdınız. Mən də bir çox sözlərin düzülüşünü tapmışam, istəyirəm siz biləsiniz. Məsələn, MÜƏLLİM - Millət Üçün Ən Lazımlı, Layiqli İnsan Müəllimdir sözlərinin baş hərfi deməkdir. Mühəndis sözü belə yaranmışdır: Millət Üzeyir Hacıbəylinin Əsərlərini Nəhayət Demokratik İnqilab Saydılar. (Üzeyir bəyin mühəndisliklə əlaqəsini təzə öyrəndim, ümid edirəm Qurbanəli bəy bizi bir daha dolamır -Z.H.)". Həkim sözü - Həzrət Əlinin Kəlamları İnsanlığın Mənbəyidir sözlərindən yaranıbmış və sairə.

Millətimizin belə fantaziyalara dalması hansı səbəbdən olur? Bəlkə ayrı işimiz-gücümüz qalmayıbdır? Kim bilir... Millət çox əsrarlı, anlaşılmaz bir orqanizmdir. Bu okeanın üzünə çıxan qabarcıqlar, ləpələr onu alt qatlarında gedən proseslərdən çox cüzi informasiya verir. Gərək bu qabarcıq zəncirini Qurbanəli müəllimin elədiyi kimi, ard-arda düzəsən ki, nəsə bir zad, nəsə plan, işıq ucu ortaya çıxsın.

Məsələn, keçən ilin axırlarında Qaçqınkom qaçqınlara xəbərdarlıq göndərdi, deyirdi dövlət sizə hər cür şərait yaradıb, ancaq bəzi qaçqınlar aldıqları mənzillərdə yaşamırlar. Baxacağıq, kim yaşamırsa evi onun əlindən alıb ehtiyacı olan başqa qaçqına verəcəyik.

Neft pulu çox gələn vaxtlarda belə elan olmazdı. Hətta mənə bir qaçqın düşərgəsində küçə göstərmişdilər, bəlkə 20 evdən 2-sində yaşayan var idi, qalanlarını rayon məmurları öz adlarına keçirib ehtiyat üçün saxlamışdılar.

Pul çox olanda biz Efiopiyadan qaçan gətirib xəttə buraxırdıq, özümüz kef eləyirdik. Bəs necə, harda görünüb bu qədər neft dolları olan qan-tərə batıb medal arzu eləsin? Yeri gələndə biz özümüz uçana-qaçana medal verirdik. Ancaq pulsuzluğun üzü qara olsun, o vaxt milliləşdirdiyimiz, hətta soyad verdiyimiz efiop qadın Layeş Abdullayeva bu yaxınlarda "Ümid" adlı komandamızdan, o cümlədən yüngül atletika yığmamızdan uzaqlaşdırıldı. İndi komanda "Ümidsiz" adlanır bəlkə də. Uzun sözün qısası, bağda ərik var idi, Layeş xanımla salam-əleyk də var idi... İndi gərək özümüz qaçaq. Mayın 1-də düzəldilən Bakı yarım-marafonu elə bunun örnəyi idi. Kasıbçılıqdan hələlik 21 kilometr qaçırıq, inşallah, gələn illərdə 42 kilometr də olar. Bunun üçün ölkəmizdə hər cür şərait yaradılmışdır. Lazım olsa qaça-qaça İrəvana gedərik!

Bu arada dost və qardaş Şimali Koreya dövlətinin şefi Kim Çen İn yoldaş yerli "YAP" partiyasına qurultay keçirmək qərarına gəlmişdir. Qurultaya qədər ölkədə toy eləmək, yas keçirmək qadağan edilmişdir. Həftənin 5-ci gününə qədər - elə çox vaxt deyil. Toyu qadağan edir, onu anladım, ancaq ölməyi necə qadağan edir, hələ başa düşməmişəm. Şimali Koreyaya ulaşmaq da çətindir, kimdən soruşasan?

Bax, gördünüz, yavaş-yavaş öyrənirik.

# "Atəşkəsə Ermənistanın xahişi ilə razılıq verdik" - prezident təmas xəttində işğalçının ağır durumunu anlatdı

## "Müharibə bitməyib" deyən Azərbaycanın dövlət başçısı İlham Əliyev aprel döyüşləri ilə bağlı bəzi detalları açdı, düşməni xəbərdar elədi...



**Xəbər verildiyi kimi, mayın 1-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Tərtər, Ağdam və Bərdə rayonlarında olublar. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev öncə Tərtər rayonundakı "N" saylı hərbi hissəyə gəlib, burada hərbi hissənin qərargahı ilə tanış olub.**

Müdafiə naziri Zakir Həsənov təmas xəttindəki son vəziyyət barədə Ali Baş Komandan İlham Əliyevə məlumat verib. Daha sonra dövlət başçısı hərbi hissənin yeməkxanası ilə də tanış olub. Hərbi hissə ilə tanışlıqdan sonra Ali Baş Komandan şəxsi heyətlə görüşüb və onun qarşısında çıxış edib.

**"Ordu quruculuğu siyasətimizin prioritetidir. Bu, təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib" deyən prezident artıq beynəlxalq ictimaiyyətin münaqişə ilə bağlı artıq tam məlumatlı olduğunu söyləyib:** "Biz bu illər ərzində bütün dünyaya sübut edə bilmişik ki, zərərçəkən tərəf bizik. Ermənistan işğalçı dövlətdir, Azərbaycan xalqına qarşı soyqırım törədib, torpaqlarımızı işğal edib və bu işğalı davam etdirir. Bu məsələ ilə məşğul olan Minsk Qrupunun həmsədrləri də son vaxtlar dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir və dəyişməlidir. Bu, nə deməkdir? O deməkdir ki, işğala son qoyulmalıdır. Bu, birbaşa Ermənistana ünvanlanan siqnaldır... Bizdə olan məlumata görə, Ermənistana həmsədr ölkələr tərəfindən ciddi təzyiqlər göstərilir. Düzdür, onlar bunu açıq şəkildə bəyan etmirlər. Onlar həmişə çalışırlar ki, balans saxlasınlar. Amma həqiqət ondan ibarətdir ki, bu gün münaqişənin sülh yolu ilə həllini əngəlləyən tərəf Ermənistandır. Bunu görərkən əlbəttə ki, onlar növbəti təxribatlara əl atmağa qərar verdilər. Bu da aprelin əvvəlində baş verdi. Yenə də onlar silahlı təxribat törətmiş, bizim mövqelərimizə hücum çəkiblər. Azərbaycan ordusu böyük məharətlə və peşəkarlıqla əks-hücum əməliyyatı keçirdi, düşməni yerinə oturtdu və təmas xəttində bizim mövqelərimiz daha da möhkəmləndi. Ermənistan tərəfinin xahişi ilə aprelin 5-də biz razılıq verdik ki, atəşkəs bərpa edilsin".

**Ölkə rəhbəri bir daha Azərbaycanın məsələnin sülh yolu ilə həllinin tərəfdarı olduğunu bildirib:** "Lakin görüntü naminə danışıqların aparılmasının da heç bir mənası yoxdur. Əfsuslar olsun, Ermənistan yenə də özünü qeyri-səmimi aparır və aprelin 5-dən bu günə qədər elə gün olmur ki, atəşkəsi pozmasın. İlk günlərdə çalışırdı ki, bizim mövqelərimizə hücum çəksin, bizi əldə etdiyimiz o mövqelərdən çıxarsın. Görəndə ki, bu alınmır, Azərbaycan əsgəri, zabiti öz doğma torpağında möhkəm dayanır, mülki əhaliyə qarşı silahlı təxribatlara başladılar. Bizim kəndlərimiz atəşə tutulub. Mülki

### "Azərbaycan dövləti mülki əhali ilə müharibə aparmır"

şəxslər həlak olub, yaralanıb. 500-dən çox evimizə ziyan dəyib, 100-dən çox ev tamamilə dağıdılıb, yaxud da yandırılıb. Bax budur, erməni faşizminin eybəcər sifəti. Onlar birinci Qarabağ müharibəsində də belə hərəkətlər edirdilər, Azərbaycan xalqına qarşı Xocalı soyqırımı törədilib. Bu gün də döyüş meydanında görəndə ki, gücü çatmır, dinc əhalini hədəfə götürür".

**Ölkə başçısı, bununla belə, Azərbaycan dövlətinin, Azərbaycan ordusunun heç vaxt mülki əhali ilə müharibə aparmadığını xatırladıb:** "Ancaq eyni zamanda Azərbaycan ordusu öz vətəndaşlarını qorumalıdır, qoruyur və qoruyacaq. Münaqişənin həlli Ermənistan dövlətinə də imkan verəcək ki, onlar da müstəqil dövlət qura bilsin. Mən yenə də ümid edirəm ki, onların işğalçı siyasəti sona çatacaq. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq və son hadisələr də bunu bir daha göstərdi. Ermənistan rəhbərliyi nə qədər tez anlasa ki, onlar ancaq Azərbaycanla sülh şəraitində inkişaf edə bilərlər, münaqişəyə bir o qədər tez son qoyular".

### "Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq"

**Prezidentin sözlərinə görə, dünyada heç bir ölkə Azərbaycanın ərazi bütövlüyünü şübhə altına almır. O, bir daha düşməni xəbərdar edib:** "Əgər bizə qarşı növbəti silahlı təxribat törədilərsə, yenə də lazımlı, tutarlı cavab veriləcək və nəticə də eyni olacaq. Çünki bu gün Azərbaycan ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuzun maddi-texniki bazası böyük dərəcədə möhkəmlənib, artıb. Ən müasir silah, texnika alınır və bu gün Azərbaycan ordusu maddi təchizat baxımından güclü ordular sırasındadır. Orduda nizam-intizam, döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Aprel döyüşləri bunu göstərdi. Ruh yüksəkliyi var. Ordumuzun, əsgərlərimizin, zabitlərimizin mənəvi-psixoloji durumu çox müsbətdir. Nəinki orduda, bütün cəmiyyətdə vətənpərvərlik hissi çox yüksəkdir. Bütün cəmiyyət vahid amal uğrunda birləşib... Həm döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizat, silah, texnikanın alınması, vətənpərvərlik ruhu, hərbçilərimizin peşəkarlığı, məharəti, aprel döyüşlərində göstərdikləri şücaət və qəhrəmanlıq bizim böyük sərvətimizdir".

### "Dünyada heç bir ölkə ərazi bütövlüyümüzü şübhə altına almır..."

***

Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva aprelin 27-dən 28-nə keçən gecə işğalçı Ermənistan ordusu tərəfindən iriçaplı silahlar və artilleriya qurğularından açılmış atəş nəticəsində zərər çəkmiş Tərtər şəhərinin Fikrət Əmirov küçəsində dağılmış evlərə baxıblar. Sakinlərlə söhbət zamanı prezident İlham Əliyev dəymiş ziyanın tezliklə aradan qaldırılacağını bildirib.

Sonra dövlət başçısı və xanımı cəbhə xəttinin 200 metrliyində yerləşən Tərtər rayonunun Qapanlı kəndinə gəliblər. Onlar artilleriya zərbəsi nəticəsində evi dağılmış kənd sakini Abbas Abbasovun həyətində olublar. Düşmənin açdığı atəş nəticəsində bu kənddə 55 evə ziyan dəyib. Onlardan 14-ü tamamilə dağıdılıb. Sakinlərlə söhbət zamanı prezident bildirib ki, ordumuz döyüş meydanında öz qüdrətini göstərib, lakin ermənilər mülki əhaliyə atəş açırlar. Dövləti başçısı qeyd edib ki, bu kənddə də düşmən güllələrinin və mərmilərin törətdiyi fəsadların aradan qaldırılması üçün bütün tədbirlər görüləcək.

Prezident və xanımı daha sonra Ağdam rayonunun qoşunların təmas xəttində yerləşən Mahrızlı kəndinə gəliblər. Burada onlar Ermənistan ordusunun vəhşilikləri nəticəsində kənddə yaranmış vəziyyətlə tanış olublar. Sakinlərlə görüş zamanı prezident Ermənistanın təxribatına Azərbaycan ordusunun layiqli cavab verdiyini deyən prezident İlham Əliyev düşmənlə üzbəüz mövqelərdə yerləşən yaşayış məntəqələrinin sakinlərinin fədakarlığını, cəsarətini və torpağa bağlılıqlarını xüsusi vurğulayıb və bunu əsl vətəndaşlıq nümunəsi kimi dəyərləndirib, dağılmış evlərin, sosial obyektlərin tezliklə bərpa olunacağını bildirib.

Həmin gün ölkə başçısı və xanımı Bərdə şəhərindəki Müalicə-Diaqnostika Mərkəzinə də baş çəkiblər. Düşmənin dinc əhalini hədəfə alması nəticəsində Ağdamın Çəmənli və Qaradağlı kəndlərinin yaralanmış 3 sakini burada müalicə olunur. Dövlət başçısı və xanımı onların vəziyyəti ilə maraqlanıb, tezliklə sağalmalarını arzulayıblar.

### "Ermənistan nə qədər tez anlasa ki, ancaq Azərbaycanla sülh şəraitində inkişaf edə bilər, münaqişəyə bir o qədər tez son qoyular"

❑ **Hazırladı: Siyasət şöbəsi**

# Şuşanın işğal günü ərəfəsində savaş xəbərdarlığı




# Prezidentin cəbhə xəttindən düşmənə mərmi kimi mesajları - "Nə qədər gec deyil!.."

## Prezident İlham Əliyevin təmas bölgəsinə səfəri Ermənistana "soyuq duş" effekti verəcək; **rusiyalı politoloq:** "Azərbaycan öz hərbi gücünü yenidən dünyaya xatırlada bilər"; Bakı-Ankara hərbi əməkdaşlığının güclənməsi üçün indi daha bir fürsət yaranıb...

**Qarabağ münaqişəsi zonasında 22 illik status-kvonun xeyrimizə dəyişməsinə gətirən 4 günlük müharibədən 1 ay ötür. Ancaq status-kvo dəyişsə də, hələ ki nizamlama prosesində irəliləyiş gözə dəymir. İşğalçı Ermənistanın rəhbərliyi özünü elə aparır ki, sanki heç nə baş verməyib, hələ üstəlik, yeni absurd şərtlər irəli sürür.**

Şübhə yox ki, düşmən tərəfin bu radikallığı müstəsna olaraq daxili auditoriyaya ünvanlanıb. Ancaq o da var ki, belə lüzumsuz ritorika yeni və genişmiqyaslı hərbi qarşıdurmaya aparır, ərazisinin 1/5-i işğal altında olan Azərbaycana hərbdən savayı çıxış yolu qoymur...

***

Belə həssas və mürəkkəb bir məqamda Azərbaycan prezidenti İlham Əliyevin öz xanımı ilə ötən bazar təmas xəttindəki yaşayış məntəqələrinə və hərbi hissələrə baş çəkməsi ikiqat-üçqat önəm kəsb edir. Yəni bu səfər təkcə yerli əhali və hərbçilərimizi ruhlandırmaq baxımından yox, həm də və ilk növbədə düşmənə, onun havadarına verilən konkret mesaj baxımından qiymətli sayılmalıdır.

Mesaj isə cəbhə xəttinin 200 metrliyinədək gedən Ali Baş Komandanın hərbi formada dediyi sözlərdə əksini tapıb. Ölkə başçısı hərbçilərlə görüşdə xüsusi qeyd edib ki, Azərbaycan mövcud vəziyyətlə, erməni işğalı ilə heç vaxt barışmayacaq: "Hazırda təmas xəttində üstünlük tamamən Azərbaycan tərəfindədir, döyüş mövqelərimiz daha da möhkəmlənib", deyə, prezident vurğulayıb. Müdafiə naziri Zakir Həsənov isə Ali Baş Komandana ordunun döyüş hazırlığının yüksək səviyyədə olduğunu və onun əmrini yerinə yetirməyə hər an hazır və qadir olduğunu söyləyib.

Azərbaycan hərbçilərini təbrik edən dövlət başçısının Ermənistan ordusunun törətdiyi son təxribatların qarşısını alarkən şücaət göstərmiş döyüşçülərə hədiyyələri məhz cəbhə bölgəsində təqdim etməsi düşmənə başqa bir xəbərdarlıq mesajı sayıla bilər: yəni axırıncı işğalçı əsgər Azərbaycan ərazisini tərk edənədək ona aman tanınmayacaq.

Prezidentin cəbhə səfəri və orada səsləndirdiyi xəbərdarlıqlar həm də o anlama gəlir ki, Azərbaycan nəinki işğala dözməyəcək, təslimçi sülh variantlarını da heç vaxt qəbul etməyəcək və ordumuz son və qəti savaşa hazırdır.

***

İşğalçı isə həqiqətən ciddi şəkildə narahatdır, təlaş içindədir. Xüsusən də aprelin sonunda revanş götürmək cəhdi baş tutmadıqdan sonra o, daha ümidsiz bir duruma düşüb. Üstəlik, müharibə oldu-olmadı, düşmən indi hər gün azı 1-2 canlı itki verməkdə davam edir ki, bu da kriminal Sərkisyan rejiminin daxili dayaqlarını, ona ictimai inamı hər gün bir az da sarsıdır, hakim qüvvənin vəziyyətini ümidsizliyə soxur.

Ermənistanda və separatçı qurumda panik ovqatın təzahürlərindən biri kimi keçmiş prezidenti Levon Ter- Petrosyanın son 18 ildə ilk dəfə olaraq dünən işğal altındakı Dağlıq Qarabağ bölgəsinə gəlməsini qeyd eləmək olar. Burada o, separatçıların lideri Bako Saakyanla görüşüb.

Aydın məsələdir ki, bu qanunsuz səfər öncəliklə erməni işğalçı qüvvələri və separatçı rejimi ağır vəziyyətdən necə çıxarmaq, Azərbaycan ordusunun gözlənilən növbəti sarsıdıcı zərbəsindən necə yayındırmaq və erməni ordusunda ruh yüksəkliyi yaratmaq istəyi ilə bağlıdır. Hər halda, Ter-Petrosyan "Qarabağ klanı" tərəfindən hakimiyyətdən devrilsə də, indi bəlli olur ki, ən ağıllı erməni siyasətçisi elə o imiş. Yoxsa qatı rəqibi olan Serj Sərkisyanın, "KQB tulası" Bako Saakyanın ona işi düşməzdi.

Vaxtilə hakimiyyətin mərhələli həll planının güdazına gedən Ter-Petrosyan isə erməni xalqını xəbərdar eləmişdi ki, "əgər indi bizə təklif edilən götürməsək, sonra onun üçün yalvaracağıq, çünki heç kəs daha onu bizə verməyəcək". Azərbaycan ordusunun blits-hərbi uğurundan sonra Sərkisyan rejimi, separatçı rejim belə birisi ilə indi intensiv məsləhətləşmələrə ehtiyac duyubsa, deməli, təcavüzkarın durumu ağırdır.

Ümid edək ki, heç olmasa, Levon Ter-Petrosyan ondan bir gün qabaq cəbhə xəttində olmuş Azərbaycan prezidentinin verdiyi son mesajları separatçı rejimin başçılarına və Sərkisyana düzgün anlada biləcək...

***

İlham Əliyev cəbhə bölgəsində ikən Ermənistanın yuxusunu qaçıracaq daha bir mühüm olay baş verib. Söhbət qardaş Türkiyədə ilk dəfə olaraq "Bayraktar TB2" silahlı pilotsuz təyyarələrin (kamikadze-dronların) istehsalına başlanmasından gedir *(Türkiyə dünyada 6-cı belə ölkə oldu, Rusiya o sırada yoxdur).* Bu dronların döyüş əməliyyatları zamanı hansı təhlükə kəsb etdiyini isə kim bilməsə də, erməni işğalçı qüvvələri 4 günlük savaşdan yaxşı bilir.

Türkiyənin hərbi texnoloji uğuru əlbəttə ki, Azərbaycanın da uğurudur və iki qardaş ölkənin hərbi-texniki əməkdaşlığının, bütövlükdə Türkiyə-Azərbaycan hərbi müttəfiqliyinin güclənməsində, yekun etibarilə ordumuzun döyüş qabiliyyətinin daha da artırılmasında mütləq öz sözünü deyəcək. Bütün hallarda Bakı-Ankara hərbi əməkdaşlığının güclənməsi üçün daha bir fürsət yaranıb. Bu da təcavüzkara növbəti öldürücü mesajdır.

***

Bu arada Qarabağ münaqişəsi ətrafında durumu şərh edən tanınmış rusiyalı politoloq **Qriqori Trofimçuk** aprel savaşından sonra da sülh prosesində ciddi irəliləyişin olmamasının, ərazilərin boşaldılmasına başlanmamasının olduqca təhlükəli olduğunu söyləyib. "Atəşkəsdən dərhal sonra Bakının nəzarəti altında rayonların azad olunması ilə bağlı danışıqlar başlanmalı idi. Lakin bu, baş vermədi". Politoloq bunu "Exo" qəzetinə müsahibəsində deyib.

Onun sözlərinə görə, vəziyyət gərgin olaraq qalır və 2 apreldən öncə yaranmış şəraitə qayıtmaq mümkün deyil. **"Azərbaycan başqa yolla gedə bilməz. Buna baxmayaraq, Bakı döyüş proqramı ilə özünü bütün dünyaya bir daha xatırlada bilər"** - analitik bildirib. Onun fikrincə, Lavrovun atəşkəsdən sonra Azərbaycan və Ermənistana yeni planla getməsi ilə bağlı mediada yayılanlar həqiqəti əks etdirmir. **"Heç bir sensasiya yoxdur. Ermənistan Rusiya üçün strateji müttəfiqdir və ona hər hansı bir təzyiq edəcəyi inandırıcı deyil. Hazırda rayonların qaytarılması ilə bağlı nə Azərbaycan, nə də beynəlxalq təşkilatlarla razılaşdırılmış konkret bir sxem var"** - ekspert əlavə edib.

***

Demək, Azərbaycan rusiyalı politoloqun da təsdiqlədiyi kimi, beynəlxalq hüquqdan istifadə edib işğalçını daha sərt cəzalandırmaq üçün yenindən gücə əl atmalı olacaq. Şuşanın işğal gününə bir şey qalmayıb...

❑ **Analitik xidmət**

---

# Pan Gi Munun unutduqları...



**Hüseynbala SƏLİMOV**

**Səhv etmirəmsə, bu il üçün ölkədə nəzərdə tutulan böyük toplantılardan biri başa çatdı. Bəli, Sivilizasiyalar Alyansının Bakı Forumunu nəzərdə tuturam. Forumun savabı onda oldu ki, Türkiyə prezidenti axır ki, Bakıya nəzərdə tutulan səfərini reallaşdıra bildi.**

Amma BMT-nin baş katibi Pan Gi Mun gəlmədi və səbəbini bununla izah etdi ki, guya vacib işləri var.

Bu haqda mən ötən dəfə bir-iki cümlə yazmışdım. Bir daha həmin məsələyə qayıdaraq demək istəyirəm ki, indi münaqişələrə baxışda iki vacib detal var.

Biri budur ki, Dünya Birliyinin sərəncamında sülhə məcburetmə vasitələri olmalıdır. Nə qədər ki, bu vasitələr yoxdur, heç nə olmayacaq və özümüz deyib, özümüz eşidəcəyik. Unutmayaq ki, keçmiş Yuqoslaviyada münaqişə NATO işə qarışandan sonra həll olundu. Bu, necə deyərlər, məsələnin bir tərəfi.

Bəli, deyirik ki, BMT TŞ bu vaxta qədər dörd qətnamə qəbul edib. Amma nə olsun? Onları hətta Pan Gi Mun cənablarının özü xatırlamağı sevmir. Xatırlatsaydı biz də bunu eşidərdik...

Digər amil budur ki, özlüyündə simmetriya yaxşı şeydir. Amma ötən dəfə də yazmışdım ki, simmetriya haqla nahaq, doğru ilə yalan arasında qərar tutanda böyük ədalətsizlik yaradır.

Bu vaxta qədər Azərbaycanla Ermənistan arasında simmetrik münasibət saxlamağa, bu iki ölkəyə münasibətdə simmetriyanı gözləməyə çalışıblar. Amma onlardan biri təcavüz edən, digəri isə təcavüzə məruz qalandır. Pan Gi Mun niyə Bakıya gəlmədi? Ona görə ki, məhz həmin bu simmetriyanı pozmaq istəmədi, çünki Bakıya gəlsəydi bundan ermənilər inciyə bilərdilər. "Başqa işlər" haqqında deyilənlər söz-söhbətdən savayı bir şey deyildir...

Bu simmetriya bəzən eybəcər formalar alır. Məsələn, əksər hallarda tək Azərbaycana səfərlər olmur, "bölgəyə səfər"lər olur. Bu, da məhz həmin o "incitməmək" məsələsdir...

Bizdə buna daha çox ikili standartlar deyirlər. Fərqi yoxdur, adını nə qoyursunuz, qoyun. Amma düşünürük ki, burada məsələ bir qədər fərqli olmalı idi. Əslində iki standart olmalı idi - biri Ermənistana münasibətdə, digəri isə Azərbaycana münasibətdə, çünki bir az əvvəl dediyimiz kimi, vəziyyət heç də simmetrik deyil. Bu iki ölkədən biri təcavüzkar, digəri təcavüzə məruz qalandır. Biri beynəlxalq hüququ pozan, digəri isə hüquqa və ədalətə çağırandır. Onlar arasında simmetriya ola bilərmi? Onlar arasında bərabərlik işarəsi qoymaq və ya bu iki polyar vəziyyəti eyniləşdirmək olarmı?

Olmaz. Amma edirlər. Bəli, bu da acı reallıqdır və təəssüf ki, vaxt keçdikcə dünyada belə "reallıq"ların sayı azalmaq əvəzinə bir az da artır.

Amma "cəngəllik qanunları" bumeranq kimidir, kim ondan fayda götürmək istəyirsə, son nəticədə ziyanını çəkir. Vacib deyil ki, mütləq hər şey sənin öz başında sınsın, bir də görürsən ki, bumeranq fırlanıb sənin özünə də olmasa, yaxın müttəfiqinə dəydi...

Nə isə... Qayıdaq Türkiyə məsələsinə. Prezident R.T.Ərdoğanı Bakıda görmək çox xoş idi. Həm də ona görə ki, Türkiyədə gərginliyin səngiməsi, terrorçuların əməllərinin qarşısının alınmasının özü xoş bir təəssürat yaradır.

Doğrusu, biz Türkiyə prezidentinin Qarabağla bağlı sərt danışacağını və hətta Putini yada salacağını düşünürdük. Amma o, daha çox Suriyadan və onun ətrafında baş verən proseslərdən danışdı...

Əslində mən Türkiyənin Suriyadan danışmasını başa düşürəm. Bəli, bu ölkə Suriya haqqında hamıdan çox danışmalıdır, çünki ərazisində milyonlarla suriyalı qaçqın sığınacaq tapıb. Türkiyə də Suriyadan və bu ölkə ətrafında baş verənlərdən danışmasın, kim danışsın?

Qarabağa gəldikdə isə, bunu da başa düşürük. Yox, dediklərimi Türkiyənin hər hərəkətinə bəraət qazandırmaq cəhdi kimi başa düşmək lazım deyil, heç belə fikrim də yoxdur...

Sadəcə, onsuz da Rusiya hər yerdə "Türkiyə izi" axtarır. Birbaşa və yaxud da dolayı yolla son vaxtlarda atəşkəsin pozulmasının intensiv xarakter almasını da Türkiyənin təhriki kimi yozur. Həm də nə etmək olar? Bakıda Rusiya əleyhinə kəskin bəyanatların səslənməsi bizim maraqlarımıza çox da cavab vermir...

O ki qaldı Türkiyənin Qarabağla bağlı səylərinə, siyasi və diplomatik dəstək çoxdan var. Digər məsələlərin də yolunu böyük siyasətdə olanlar daha yaxşı tapa bilərlər...

Həm də R.T.Ərdoğan Pan Gi Mun deyil, bizim özümüzünkidür, əgər hətta nəyisə demirsə, yenə də bilirik ki, bizimkidir, bizimlədir...

YENİ MÜSAVAT
N 95 (6416) 3 may 2016

**Apreldə cəbhədə başlanan hərbi əməliyyatlar yenidən Rusiya faktorunu diqqətə gətirdi. Əksər ekspertlər bildirirlər ki, bu gün də Azərbaycan üçün Rusiya işğalı təhlükəsi var. Həmçinin Dağlıq Qarabağ münaqişəsinin həllinin Rusiyadan asılı olması barədə fikirlər yeni suallar yaradır.**

# Rusiyadan qorxmalıyıqmı? - ekspertlər deyir ki...

## "Kremlin ən böyük silahı qorxu sindromu yaratmaqdır, bununla da o, prosesi asanlıqla manipulyasiya etməyi bacarır..."

Lakin bəzi təhlilçilərə görə, hər şeyin açarının Rusiyada olması kimi fikirlər yanlışdır. Yəni geosiyasi vəziyyət dəyişdiyindən, artıq Rusiyadan qorxmaq lazım deyil. **Ekspert Natiq Miri** bildirdi ki, Rusiyanın ən böyük silahı qorxu sindromunu yaratmaqdır: "Bu qorxu sindromunu yaradandan sonra Rusiya prosesi çox asanlıqla manipulyasiya etməyi bacarır. Bu baxımdan, Rusiyadan qorxmaq deyil, əksinə, situasiyanı çox dəqiq qiymətləndirərək adekvat addımlar atılmalıdır. Xüsusilə də Rusiyanın istənilən aqressiv davranışlarını neytrallaşdıra biləcək bir çox geosiyasi addımlar var ki, bunları atmaq gərəkdir. Yoxsa Rusiyadan qorxaraq istənilən bir məsələni, hətta həyati önəmi olan məsələləri etməmək Azərbaycana çox böyük zərər vurur. Bu gün Rusiya bütün dünya çapında aqressiv davrana bilir. Ona görə ki, onun qarşısına çıxacaq heç bir dünya gücü yoxdur. Heç kim Rusiyanı qarşısına almaq istəmir. Bu yanlış siyasət Rusiyanın aqressiyasına rəvac verir".

**Ekspertin sözlərinə görə, bu gün dünyada bütün münaqişə ocaqlarının episentrində Rusiya var:** "Bu, Rusiyanın aqressiv siyasətinin göstəricisidir. Maraqlıdır ki, niyə Rusiya bu qədər əl-qolunu aça bilir? Ona görə ki, onun qarşısını hər hansı bir dünya gücü almaq istəmir. Dünya gücü Rusiyanı qarşısına aldığı təqdirdə, o, dərhal geri çəkiləcək. Bəzən Rusiyanın Suriyadan məcbur geri çəkilməsi olsa da, digər nahiyələrdə - Ukraynada və ya Dağlıq Qarabağ cəbhəsində savaş tətiklənir. Bu, Rusiya siyasətinin təsirli hissəsidir. Ona görə də bu gün Dağlıq Qarabağdakı prosesləri Suriya və Ukraynadakı proseslərdən tamamilə kənarda düşünmək doğru deyil. Rusiya həm Dağlıq Qarabağ cəbhəsində, həm də Ukraynada savaşı tətikləməklə eyni zamanda Qərb dünyasına təzyiq edir ki, ona qarşı sanksiyaları aradan qaldırsınlar və Rusiyanın geosiyasi maraqlarını qəbul etsinlər. Bunlar hamısı Rusiyanın süni surətdə yaratdığı qorxunun üstündə qurulub. Bütün prosesi məhz bu qorxu üzərində



Rusiya idarə edir. Buna görə də Rusiyadan qorxmaq lazım deyil".

**Politoloq hesab edir ki, Azərbaycan da Rusiyadan qorxaraq əgər siyasət yürüdəcəksə, heç bir zaman nə müstəqil dövlət ola biləcək, nə də Dağlıq Qarabağ problemini həll edə biləcək:** "Bunun üçün zamanı və geosiyasi vəziyyəti doğru qiymətləndirmək gərəkir. Əgər belə olacaqsa, təbii ki, Rusiya da təsirsiz qalacaq. Çünki Rusiyanın da dünyada hesablaşdığı güclər var. Bu güclərdən biri ABŞ-dır. Bundan başqa, nəzərə almaq lazımdır ki, bu gün Dağlıq Qarabağ ABŞ üçün prioritet siyasət deyil. Bu gün Azərbaycan çalışmalıdır ki, Qarabağ problemi ABŞ-ın prioritet siyasətinə çevrilsin. Əgər bu siyasət prioritetə çevriləcəksə, onda Dağlıq Qarabağ problemini həll etmək də asan olacaq. Ona görə Rusiyanı təsirsiz hala gətirəcək güclərlə əməkdaşlığı doğru formada qurmaq lazımdır. Bunun üçün hansı səbəblər varsa, o səbəbləri ortaya qoymaq lazımdır".

**Politoloq Qabil Hüseynli də Rusiyadan qorxmağa ehtiyac görmür:** "Amma bölgədə Rusiya faktorunun təsirli olduğunu nəzərə almaq olar. Yəni ehtiyatlı siyasət yeridib bu siyasəti Rusiyaya da izah etməyə çalışmalıyıq. Amma Rusiya bizimlə şantaj, qorxu dili ilə danışırsa və bizə təzyiq göstərməyə çalışırsa, əsla boyun əyməməliyik. Doğrudur, bu məsələlərin qarşıdurmaya çevrilməsinə də imkan verməməliyik. Məsələni zamana yaymalıyıq. Rusiyanın özünün də vəziyyəti o qədər qənaətbəxş deyil. Rusiyanın bəlkə də hər gün olmasa da, hər ay vəziyyəti pisləşir. Rusiya həmişə bu bölgədə qanunverici gücündə çıxış etməyəcək. Buna görə də bu gün ola bilsin ki, Rusiya ilə bir qədər ehtiyatlı davranmağa ehtiyac var. Amma Moskva nələri isə diktə edirsə, onları nəzərə almaq məcburiyyətində deyilik. Yeri gələndə biz Rusiyaya öz milli haqlarımızı və beynəlxalq hüquqla tənin edilmiş hüquqlarımızı onunla polemikada, danışıqlarda stol üzərinə yatırmağı bacarmalıyıq".

❑ **Röya RƏFİYEVA**

# Mülki əhalinin bombalanmasına qarşı mitinq keçirilə bilər

## Müxalifət partiyalarının əksəriyyəti belə bir aksiyaya hazırdır; "Ümummilli mövqe ortaya qoyulması baxımından ümumi işin xeyrinə olar"



Arzuxan Əlizadə



Əli Əliyev



Elman Fəttah



Taliyət Əliyev

**Ermənistanın işğalçı silahlı qüvvələri beynəlxalq konvensiyaları pozaraq Qarabağda cəbhə xəttinə yaxın yaşayış məntəqələrində mülki azərbaycanlı əhalini bombalayır. Aprelin son günlərində Ermənistan bu vəhşiliyini xüsusilə intensivləşdirdi. Azərbaycan dövləti diplomatik kanallar vasitəsilə, eyni zamanda xarici jurnalistlərin bölgəyə gəlişinə şərait yaratmaqla Ermənistan müharibə qanunlarını, beynəlxalq konvensiyaları necə tapdaladığını dünyaya çatdırır. Bəs müxalifət partiyaları ermənilərin mülki əhalini bombardman etməsinə etiraz mitinqi keçirə bilərmi? Ən azından problemin dünya birliyinə həm də bu şəkildə çatdırılması üçün lazımdırmı belə bir mitinq?**

**AMİP-in sədr əvəzi Arzuxan Əlizadə** bildirdi ki, bütün yazılmış və yazılmamış müharibə qanunlarının əksinə olaraq mülki əhaliyə qarşı görünməmiş vəhşiliklər edilməsi ermənilərin işğal siyasətinin tərkib hissəsidir. Ötən əsrin əvvəllərindəki müharibə zamanı, eləcə də 1988-ci ildən bu tərəfə minlərlə belə fakt məlumdur. Təkcə Xocalı faciəsi ermənilərin hansı vəhşi təfəkkürə malik olduqlarını göstərir. Bütün bu vəhşiliklərin arxasında duran əsas niyyət ondan ibarətdir ki, mülki əhali arasında daimi qorxu hissi olsun və əhali məskunlaşdığı əraziləri tərk etmək məcburiyyətində qalsın. Təəssüf ki, ermənilər zaman-zaman bu məsələdə öz niyyətlərinə çatıblar. Bu illər ərzində Azərbaycan tərəfi iqtidarlı müxalifətli fərq etmədən, müxtəlif üsullardan istifadə etməklə erməni vəhşiliklərini dünya ictimaiyyətinə çatdırıb: "Amma görünən odur ki, əksər hallarda dünya ictimaiyyəti ermənilərin törətdiyi vəhşilikləri görməzdən keçir. O səbəbdən də növbəti dəfə ermənilərin mülki əhaliyə qarşı törətdiyi vəhşilikləri dünya ictimaiyyətinə çatdırmağa enerji sərf etməyi lüzumsuz hesab edirəm. Sızlamaq, mülki əhalini erməni vəhşiliklərindən qorumaqda acizliyimizi nümayiş etdirmək bizə başucalığı gətirməyib və gətirməyəcək də. Bunun əvəzində siyasi mənsubiyyətindən asılı olmayaraq Azərbaycan xalqının öz torpaqlarını işğaldan azad etmək üçün müharibəyə hazır olduğunu dünya ictimaiyyətinə nümayiş etdirmək üçün ümumxalq mitinqinin keçirilməsi və bütün xalqın iradəsinin ortaya qoyulması daha düzgün olar. Cəbhədə baş verən son hadisələr də bir daha göstərdi ki, bu məsələdə heç bir fikir ayrılığı yoxdur. Sadəcə, düşünülmüş siyasət yürütməklə müdafiə olunmaq taktikasını hücum taktikası ilə əvəz etmək lazımdır. Mitinq də hücum taktikasının bir elementi kimi keçirilməlidir".

**VİP sədri Əli Əliyev bildirdi ki, Azərbaycanın müharibə siyasəti bütöv, çoxcəhətli və ümummilli olmalıdır:** "Çünki xarici təhlükə, bu halda düşmənə qarşı vahid mövqe dövlət siyasətinin tərkibi olmalıdır. Belə mövqeyin formalaşmasının moderatorluğunu iqtidar həyata keçirməlidir. Hakimiyyət çalışmalıdır ki, beynəlxalq ictimaiyyətə deyə bilməyini opponent təşkilatlar-müxalifət vasitəsilə çatdırsın. Təəssüf ki, hakimiyyət bu mühüm amildən zəif istifadə edir. VİP-in təmsil olunduğu Antiböhran Koalisiyası ötən həftə bir sıra təkliflərlə çıxış edib. Bu müraciətdə Qarabağ probleminin çözümü üçün bir sıra təkliflərlə birlikdə ölkə üzrə milli iradənin nümayişi üçün kütləvi ümummilli aksiyaların keçirilməsi ideyası irəli sürülüb. Belə tədbirlərin müxalifət çevrəsində keçirilməsindən daha effektlisi ümummilli mövqe nümayişi olardı".

**Müsavat Partiyası başqanının müavini Elman Fəttah isə qeyd etdi ki, cəbhə xəttinə yaxın ərazilərdə mülki əhalinin mühafizəsi hökumətin birinci dərəcəli vəzifəsidir:** "Düşmən silahla hücum edir. Ona etiraz aksiyası ilə cavab verilməsini düşünmək adekvat yanaşma olmaz. Azərbaycan ərazisinin bombalanması suverenliyin təhdid edilməsidir. Mitinq adekvat cavab deyil. Cavab adekvat şəkildə verilməlidir".

**ADP sədrinin müavini Taliyət Əliyev isə Qarabağla bağlı böyük bir mitinq keçirilməsinin ümumi işə xeyir gətirə biləcəyini düşünür:** "Müxalifət partiyaları erməni hərbi birləşmələrinin mülki əhalimizin atəşə tutulması və evlərinin dağıdılmasına etiraz əlaməti olaraq aksiya keçirə bilər. Bu, ümummilli mövqe ortaya qoyulması baxımından ümumi işin xeyrinə olar. Amma mitinq bu problemin dünya ictimaiyyətinə çatdırılması baxımdan elə də böyük effektli vasitə deyil. Bunun üçün Azərbaycan hakimiyyəti sistemli iş aparmalıdır. Son günlər beynəlxalq KİV-lərin cəbhə bölgəsinə gəlməsi və ya gətirilməsi daha effektli vasitədir. Çünki müasir zamanda bir çox hallarda bir elektron KİV-in gördüyü işi minlərlə insan edə bilmir. Bu baxımdan hesab edirəm ki, hakimiyyətin bu sahədə ciddi strategiyası olmalıdır. Həmin strategiyaya ictimai-siyasi təşkilatların etiraz aksiyaları da daxil edilə bilər. Yeni mitinqlər elementlərdən biri olmalıdır".

❑ **Etibar SEYİDAĞA**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



**Aprelin 5-də Moskvada əldə olunmuş atəşkəs razılaşmasına baxmayaraq, Ermənistanın işğal altındakı hərbi qüvvələri Azərbaycanın hərbi mövqelərini və yaşayış məskənlərini atəşə tutmaqda davam edir. Düzdür, işğalçı təkcə son həftə ərazində 10-a yaxın itki verdiyini açıqlayıb, ancaq düşmən yenə də təcavüzündən əl çəkmir. Paralel olaraq erməni tərəf bütün təmas xətti boyu aktivləşməkdədir.**



# Mayın 8-i Qarabağda hərbi əməliyyatlar təkrarlana bilər

## Dağlıq Qarabağdakı terrorçular Şuşanın işğal günü “erməni xalqına hədiyyə” etməyə çağırdılar; düşmən ölkə həm böyük silah arsenalına malik olduğunu bəyan edir, həm də Azərbaycan ordusunun təmas xəttinə əlavə qüvvələr toplamasından təşvişə düşüb

Terrorçuları öz ətrafında birləşdirən Ermənistan Könüllülər İttifaqı (“Yerkrapa”) isə ayrıca bəyanatla çıxış edib (milli.az) Dağlıq Qarabağın və Azərbaycanın digər ərazilərinin işğalında iştirak etmiş erməni caniləri birləşdirən qurumun bəyanatı əslində düşmən ölkənin niyyətini ortaya qoyur. Fakt budur ki, Sərkisyan hakimiyyəti mövcud vəziyyətdən çıxmaq üçün heç olmasa, təsəlli sayılacaq kiçik qələbəyə nail olmaq istəyir. Ona bu qələbə danışıqlarda itirilmiş mövqelərinin, həmçinin ölkə daxilində tar-mar olmuş imicinin bərpa olunması baxımından çox lazımdır. Gələn məlumatlara görə, Ermənistan ordusu və Qarabağ separatçıları mövqelərimizə doğru yeni hücuma hazırlaşırlar. Hətta iddia olunur ki, hücum mayın 8-i, Şuşanın işğalı günündə ermənilərə “hədiyyə” etmək məqsədi güdür. “Yerkrapa”nın rəhbəri Manvel Qriqoryanın sözlərinə görə, “bütün ermənilər mayın 8-də gözəl hədiyyə almağa layiqdirlər”. Ermənistan dördgünlük müharibədə itirdiyi mövqelərin ona qaytarılmasını istəyir. İrəvandakı “Lragir” qəzetinin baş redaktoru Haykazn Qaqriyan isə “Vaxt tükənir: irəliləyiş yaxındadır” başlıqlı məqaləsində yazıb: “Belə təəssürat yaranır ki, tərəflərə sanki vaxt verilmişdi və indi o vaxt tükənir”.

Ermənistan ordusunun Dağlıq Qarabağda və işğal edilmiş digər ərazilərdə son günlərdə müşahidə olunan aktivliyi də düşmənin hücum niyyətindən xəbər verir. Bu arada Ermənistan ordusunun işğal altındakı Dağlıq Qarabağda yerləşən hərbi birləşmələrinin malik olduğu texnika və artilleriya qurğularının sayı barədə məlumatlar yayılıb. Modern.az-ın məlumatına görə, işğal olunmuş Qarabağ bölgəsində ermənilərin 371 tankı, 324 PDM-i və ZTR-i, 44 ədəd “Qrad” artilleriya qurğusu, 102 ədəd D-30 122-mm-lik qaubitsalar, 152 mm-lik qaubitsa-top, 99 ədəd 152 mm-lik 2A36 topları, 100 mm-lik KC-19 zenit topları, 85 mm-lik D-44 divizion topları, 2 ədəd Su-25 qırıcısı və 8 ədəd Mi-24 döyüş helikopteri var. Bundan başqa, Dağlıq Qarabağda Ermənistan ordusunun 20 minlik işğalçı korpusunun da yerləşdiyi məlumatlar arasındadır.

Ermənistandan Dağlıq Qarabağa göndərilmiş “Toçka-U” taktiki raket buraxılış sistemləri artıq Füzuli, Cəbrayıl və Ağdərə istiqamətlərində yerləşdirilib.

Rusiyalı ekspert Oleq Kuznetsov da demişdi ki, əgər yaxın müddətdə sülh əldə olunmasa, savaş yenidən başlayacaq. **“Mayın 8-i yaxınlaşır. Bu, erməni silahlı birləşmələri tərəfindən qeyd edilən Şuşanın işğal günüdür. Qondarma ”Arsax dövləti"ndə bu, bayram hesab edilir. Vacib deyil, atəşi birinci kim açacaq. Bu, Azərbaycan ordusunun yeni lokal hücum əməliyyatına başlaması üçün ən əlverişli gündür. Nədən ki, Rusiyanın buna qarışmayacağına yüz faiz zəmanət var. Ən azı üç gün - mayın 7-dən 9-dək Qələbə Günü ilə bağlı bu zəmanət olacaq və Azərbaycan bu 3 gündə nə istəsə, onu öz ərazisində eləməyə ixtiyar sahibidir. Sonra isə Kreml növbəti “sakitləşdirmə” mərhələsinə başlayacaq - hansı mərhələ ki, yalnız konflikt zonasında yeni hərbi-siyasi situasiyanın fiksasiyasından ibarət olacaq"** - ekspert demişdi.

Mümkündür ki, bu, bir ekspertin proqnozu deyil, həm də Rusiya hakimiyyət dəhlizlərində dolaşan informasiyadır. Ermənistanın müdafiə naziri Seyran Ohanyanın Moskvaya son səfəri zamanı isə Rusiya müttəfiqinə silah yardımı edəcəyinə söz vermişdi. Düzdür, Ermənistan mətbuatı da Azərbaycan ordusunun təmas xətti boyu aktivləşməsindən, bölgəyə əlavə qüvvələr yerləşdirilməsindən bəhs edən materiallar verir. Hesab olunur ki, düşmən ordumuzun ona növbəti sarsıdıcı zərbə vuracağından ehtiyatlandığı üçün öz gücünü bir neçə qat şişirdərək tirajlayır. Yəni işğalçı daha çox qorxduğu üçün qorxutmağa çalışır. Lakin o da mümkündür ki, Ermənistan Rusiyanın hərbi texnikasının xidmətindən də yararlansın və Azərbaycandan qisas almaq niyyətinə düşsün.




## Azərbaycan Müdafiə Nazirliyi: “Azərbaycan ordusu düşmənin istənilən fəaliyyətinin qarşısını almağa hazırdır”

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a açıqlamasında təmas xəttində gərginliyin qaldığını söylədi:** “Cəbhə bölgəsində atəşkəsə riayət olunmur. Bu da təbiidir. Çünki atəşkəsin ardınca danışıqlar intensivləşməli idi. Biz bunun əvəzinə 6 aprel tarixindən bu yana Bakı və İrəvana əhəmiyyətsiz səfərlərin şahidiyik. Nə rusiyalı rəsmilər, nə də avropalı diplomatlar Bakı və İrəvana səfərlərində konkret təkliflər gətirmədilər, heç kəs İrəvanı inandırmır ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmadan problem həll olunmayacaq. Ona görə də bu gedişat bölgəni növbəti genişmiqyaslı hərbi toqquşmalara aparır. Müharibənin baş verməə ehtimalını Ermənistan ordusunun cəbhə bölgəsindəki təxribatları da artırır. Ermənistan hakimiyyəti və ordu komandanlığı 1990-cı illərin əvvəllərindəki taktikanı təkrarlamağa çalışırlar. O illərdə Ermənistan ordusu Azərbaycanın kəndlərini və rayonlarını bombalayır, bu da mülki əhali arasında itkilərin sayının artmasına gətirib çıxarardı. Digər tərəfdən, Azərbaycan ordusu nizamlı deyildi, silahlı birləşmələr müxtəlif siyasi fiqurlara tabe idi. Və həmin siyasi fiqurlar arasındakı gərginləşən münasibətlər silahlı birləşmələrin döyüş əhval-ruhiyyəsinə mənfi təsir edirdi. Kənd və rayonların boşalması da savaşan insanların döyüş ruhuna mənfi təsir edirdi. İndi isə Azərbaycanda vəziyyət tam fərqlidir. Azərbaycanda 24 ildə nizami ordu quruldu, könüllü batalyonlar yoxdur, ordu yalnız müdafiə nazirinin əmrlərinə tabedir. Ordunun silah və sursatı da 1990-cı illərdəkindən daha moderndir. Digər ən böyük faktor Ermənistan ordusunun bombardmanlarına baxmayaraq mülki əhalinin yaşayış yerini tərk etməməsidir. Yeni Ermənistan hakimiyyətinin və ordusunun 1990-cı illərdəki ”mülki əhalini qorxu altında saxlamaq" strategiyası işləmir. Əksinə, Azərbaycanın rayon və kəndlərinin bombardman edilməsi Azərbaycan ordusunu işğalçı qüvvələrə qarşı yeni əks-hücuma həvəsləndirir. Həm də əgər Ermənistan ordusu yaşayış məntəqələrini bombalayırsa, Azərbaycan ordusunun əks-hücuma keçməsi üçün əngəl də qalmır. Beynəlxalq aləmin, o cümlədən Rusiyanın Azərbaycan ordusunun hücuma keçməsinə mane olması siyasəti zəifləyir. Çünki atəşkəsin Ermənistan tərəfindən pozulduğu aşkardır. 5 apreldə Azərbaycan hakimiyyəti Kremli eşitdi. Növbəti savaşda Azərbaycan ordusunu atəşkəsə dayandırmaq çətin olacaq. Bunu bəzi ərazilərin azad olunması ilə bağlı ordudakı və cəmiyyətdəki yüksək əhval-ruhiyyə də sübut edir. Azərbaycan hakimiyyəti isə zabit heyətinin və cəmiyyətin bu sifarişi ilə hesablaşmaq məcburiyyətindədir".

***

## Politoloq: “Bu gedişat bölgəni növbəti genişmiqyaslı hərbi toqquşmalara aparır”

Aprelin 2-də Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan 9 illik fasilədən sonra Azərbaycanın işğal altındakı ərazilərinə gəlib. Qeyd edək ki, hələ S.Sərkisyan Ter-Petrosyanın ayağına gedəndən sonra keçmiş prezident demişdi ki, yaranmış situasiyanı müzakirə etmək üçün Dağlıq Qarabağa gedəcək. Eks-prezidentin Qarabağ separatçılarının başçısı Bako Saakyanla konkret nələri müzakirə etdiyi bəlli deyil. Ancaq güman olunur ki, Qarabağ ətrafındakı situasiyanı daha real qiymətləndirməyi bacaran Ter-Petrosyan hərbi ritorikaya üstünlük verən separatçı lideri başa salmaq üçün gəlib. Hakimiyyəti dövründə Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş ərazilərin qaytarılmasında israr edən və buna görə də erməni lobbisinin qəzəbinə tuş gələn Ter-Petrosyanın budəfəki mövqeyi maraq doğurur.

**Politoloq E.Şahinoğlu hesab edir ki, Ermənistanın eks-prezidenti Levon Ter-Petrosyanın Dağlıq Qarabağa gəlişi heç də Serj Sərkisyanı xilas etmək üçün deyil:** “Ter-Petrosyan bilir ki, Sərkisyanın siyasi perspektivi yoxdur. Ona görə də o, son məqamda Sərkisyanı müdafiə etməyəcək. Sadəcə, Levon Ter-Petrosyan taktiki maraqlardan xidmət edir. Keçmiş dövlət başçısı Robert Köçəryan Ter-Petrosyan üçün daha qorxulu fiqurdur. Ona görə də Köçəryanın hakimiyyətə gəlişini əngəlləmək üçün Ter-Petrosyan Sərkisyanla müvəqqəti taktiki müttəfiqliyə razılaşıb. Daha sonra bu yollar ayrılacaq. Hazırda isə Ter-Petrosyan Sərkisyanın dəstəyi hesabına öz reytinqini qaldırmaq istəyir. Dağlıq Qarabağa səfər də bu reytinq siyasətinin tərkib hissəsidir. Eynilə Sərkisyan Ter-Petrosyandan öz məqsədləri üçün istifadə etmək istəyir. Əsas məsələ odur ki, Sərkisyan Dağlıq Qarabağ məsələsində eks-prezidentdən dəstək gözləyir”.

**E.Şahinoğlu vurğuladı ki, Sərkisyanın Dağlıq Qarabağla bağlı planı yoxdur, Azərbaycanın mülki əhalisini hədəfə almaq planı da işə yaramadı:** “Ona görə də Sərkisyan Qarabağ məsələsində Ter-Petrosyandan konsensus gözləyir. Çünki Ermənistan prezidenti Dağlıq Qarabağla bağlı təkbaşına qərar vermək istəmir. Bu, onun üçün böyük yükdür. Ancaq məncə, Ter-Petrosyanın da hələ ki Qarabağla bağlı yeni fikri yoxdur. İnanmıram ki, o, yaxın günlərdə ”Ermənistan problemi həll etmək üçün Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmalıdır" fikrini dilə gətirsin. Bunu Ter-Petrosyana, eləcə də indiki prezidentə Azərbaycan ordusu döyüş meydanında növbəti uğurları ilə dedizdirməlidir və bəlkə də ilin sonuna qədər bu, baş verəcək".

**Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, hərbi texnika və silah-sursatla bağlı açıqlanan rəqəmlər real ola bilməz:** “Ermənilərin göstərdiyi həmin rəqəmlər Dağlıq Qarabağda toplanan ”könüllü"lərin sayından artıqdır. Ona görə də bu, uydurma məsələdir. Biz ancaq real faktlar və real rəqəmlərlə danışırıq, fərziyyələrlə yox".

**V.Dərgahlı düşmən ölkənin Azərbaycan ordusunun təmas xəttinə əlavə canlı qüvvə və texnika daşıması ilə bağlı hay-küyünə də reaksiya verdi:** “Biz dəfələrlə bildirmişik ki, Azərbaycan ordusunun ölkənin tanınmış sərhədləri daxilində istənilən istiqamətdə hərbi texnika və canlı qüvvəsini hərəkət etdirmək, cəmləşdirmək və yerdəyişməsini həyata keçirmək hüququ var”. Ermənilərin qəfil hücuma keçə biləcəyi barədə xəbərlərə gəldikdə, MN rəsmisi “Azərbaycan ordusu düşmənin istənilən fəaliyyətinin qarşısını almağa hazırdır” - dedi.

**Görünən budur ki, qarşıda bizi çox gərgin həftə gözləyir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 95 (6416) 3 may 2016

# "Vəli Əsgərovun əlində çox ciddi faktlar var"

## Vəkil Vüqar Xasayev: "Ona deyirlər ki, niyə xəyanət etmisən, nə üçün Bakıya vəzifəyə getmək istəmisən?"

**"Naxçıvanın sabiq milli təhlükəsizlik naziri, hazırda ev dustağı olan Vəli Əsgərovun əlində çox ciddi faktlar var". Bunu "Yeni Müsavat"a onun vəkili Vüqar Xasayev deyib. Vəkil həmin faktları Baş Prokurorluğa təqdim edəcəklərini bildirib: "Əlimizdə elə faktlar var ki, dövlətçilik naminə açıqlamırıq. Ortada yüksək rütbəli, vəzifəli şəxslər tərəfindən törədilən faktlar var. Vəli Əsgərovun adını qoyurlar ki, guya dövlətə, Vasif Talıbova xəyanət edib.**

Əslində isə ortada belə bir fakt yoxdur. Vəli Əsgərov "yıxılan"dan sonra çox yüksək rütbəli məmurlar dövlətçiliyə xələl gətirən addımlar atırlar. Mən həmin adamların yerinə xəcalət çəkirəm. Hələlik adlarını çəkmirik. Baş prokurora bu gün şikayətimi çatdıracağam. Şikayətimdə həmin adamların da adlarını göstərəcəyəm. Cinayət işinin Naxçıvan Prokurorluğundan alınaraq Bakı prokurorluqlarından birində araşdırılmasını təkrarən tələb edəcəyəm".

**Vüqar Xasayev deyir ki, Vəli Əsgərov yüksək vəzifəli şəxslərin hüzuruna aparılır, orada döyülür, təhqir olunur:** "Vəli Əsgərova deyirlər ki, nəyə görə xəyanət etmisən? Bakıya nə üçün vəzifəyə getmək istəmisən? Elə deyirlər ki, guya Bakı hansısa xarici dövlətdir. İşlədikləri inzibati binalarda, digər vəzifəli şəxslərin gözü qarşısında Vəli Əsgərova işgəncə verir, təhqir edirlər. Bu dözülməzdir, qeyri-insani, qəddar rəftardır".

**Vəkil deyib ki, müvəkkilinə qarşı həbs olunandan sonra yol verilən işgəncələr haqda hələlik tam olaraq Baş Prokurorluğa məlumat verilməyib:** "Martın 7-də həbsə alandan sonra ona dəhşətli işgəncələr verilib. Sonuncu belə işgəncələr keçirdiyimiz mətbuat konfransdan sonrakı günlərə təsadüf edib. Bu işgəncələri biləvasitə yüksək vəzifəli şəxslər verib. Hələlik adları açıqlamırıq, amma gedişata uyğun qərar verəcəyik".

Qeyd edək ki, bundan əvvəl vəkil Eldar Mahmudovun vəzifədə olarkən Vəli Əsgərova Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovu və ailə üzvlərini dinləməsi tapşırığını verdiyini, lakin sabiq nazirin tapşırığa əməl etmədiyini açıqlayıb. İddia edib ki, V.Əsgərov tapşırığın icrasından imtina edəndən sonra Eldar Mahmudov onun barəsində kompromat material yığmağa başlayıb. Guya Vəli Əsgərov Bakıya vəzifəyə gəlmək istəyir. Bu səpkili dezinformasiyanı Vasif Talıbova ötürüb. Bundan sonra Vəli Əsgərovun başına bu oyunlar gəlib.



Vəli Əsgərov

Vəli Ələsgərov 15 il Naxçıvanın milli təhlükəsizlik naziri olub. Həbsindən bir neçə ay əvvəl general-leytenant rütbəsi verilib. Eldar Mahmudov milli təhlükəsizlik naziri postundan çıxarılandan sonra onun postuna V.Əsgərovun namizədliyi müzakirə olunub. Vəkilləri bildiriblər ki, onun barəsində çirkin kampaniya bundan sonra başlanıb, özünü həbs edib yaxınlarının əmlaklarını əllərindən alıblar, 50-yə yaxın qohumu işdən qovulub.

V.Əsgərovun nazirliyi dövründə Naxçıvan MTN öndə gedən repressiv orqan kimi ad çıxarıb, orada ictimai fəallar, jurnalistlərə qarşı zorakılıqlara yol verilib, şantaj olunub, Naxçıvan sakinlərinin bir neçəsi qurumdakı dəhşətli işgəncələrin sonucu olaraq dünyalarını dəyişiblər.

❑ E.MƏMMƏDƏLİYEV

# "Kürdəmirin icra başçısının müavini torpağımızı mənimsəyib"

## Fermer məmuru saxta sərəncam tərtib etməkdə suçlayır; icra hakimiyyəti ittihamlara cavab verdi

**"Kürdəmir İcra Hakimiyyətinin birinci müavini saxta sərəncam hazırlayaraq mənə məxsus ərazini qardaşının adına keçirib, təkidlə həmin ərazidən çıxmağımızı tələb edir".**



Bu sözləri redaksiyamıza gələrək şikayətlə müraciət edən İsmayıllı sakini Ədalət İsmayılov bildirib. Ədalət İsmayılov qeyd edib ki, rəsmi müqavilə ilə 15 il müddətinə icarəyə götürdüyü ərazidən istifadə edə bilmir: "2002-ci ildə 3 ailə birləşərək "Ədalət" kəndli fermer təsərrüfatı - Məhdud Məsuliyyətli Cəmiyyəti yaradaraq qoyunçuluq və maldarlıqla məşğul oluruq. Bunun üçün 2002-ci ildə Kürdəmir rayonu ərazisində İsmayıllı rayonuna təhkim olunan qış otlaq sahəsindən İsmayıllı Rayon İcra Hakimiyyətinin sərəncamı ilə 15 il müddətinə 487 hektar örüş sahəsini icarəyə götürmüşdüm və təsərrüfatımı orada yaratmışam.

Nazirlər Kabinetinin 2006-cı il tarixli qərarı ilə həmin ərazilər Kürdəmir rayonunun inzibati ərazisinə daxil edildiyi üçün mən yenidən Kürdəmir Rayon İcra Hakimiyyətinin 4 dekabr 2017-ci il tarixli 152 saylı sərəncamı ilə 430 hektar ərazini 15 il müddətinə icarəyə götürüb müqavilə bağlamışam. Mən 2-ci dəfə Kürdəmir Rayon İcra Hakimiyyətindən sərəncam alanda əvvəlki ərazinin ən yaxşı hissəsini, 85 hektar hissəsini həmin vaxt Kürdəmir Rayon Təhsil Şöbəsinin müdiri, indi isə Kürdəmir Rayon İcra Hakimiyyətinin birinci müavini vəzifəsində işləyən Tacəddin Novruzov zorla mənim əlimdən alaraq qardaşı Sədrəddinin adına keçirib. 100 hektar sahə isə başqa şəxslərə verilib. Ona görə də mənə tam yararsız şoran sahəyə dair sərəncam verildi. Mənə verilən 430 hektar sahənin xəritəsi və Kadastr planı hazırlayıb almağıma baxmayaraq, bu günə qədər həmin sahə ölçülüb verilməyib və təhkim aktı yazılmayıb".

**Ədalət İsmayılov məsələ ilə əlaqədar aidiyyəti orqanlara müraciət etdiyini, lakin heç bir nəticə olmadığını bildirib:** "Bu barədə Kürdəmir Rayon İcra Hakimiyyətinə, keçmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə, Kürdəmir Rayon Prokurorluğuna dəfələrlə rəsmi müraciət etməyimə baxmayaraq hələ ki bir nəticə yoxdur. Mən həmin ərazidə zor gücünə dava-dalaş hesabına heyvan saxlayıram. Yenidən Tacəddin Novruzov icra hakimiyyəti başçısının xəbəri olmadan saxta sərəncam hazırlayaraq mənə məxsus ərazidən 30 hektar və 150 hektar sahənin qardaşı Sədrəddinin adına keçdiyini bildirərək, bizim oradan çıxmağımızı təkidlə tələb edir. Hansı ki, mənim müqaviləmin müddəti 2023-cü ilə qədərdir".

**Ədalət İsmayılovun şikayəti ilə bağlı Kürdəmir İcra Hakimiyyətinin mövqeyini öyrənməyə çalışdıq. Qurumdan məsələ ilə bağlı verilən cavabı təqdim edirik:** "Bildiririk ki, "Ədalət" kəndli fermer təsərrüfatı MMC-yə icarəyə torpaq sahəsi verilməyib. Torpaq sahəsi fiziki şəxs olaraq İsmayılov Ədalət Qurban oğluna icarəyə verilib. Ona verilən torpaq sahəsinin hamısından, yaxud bir hissəsindən Ədalət Qurban oğlunun icarə hüququna xitam verilməyib".

**Qurum şikayətdə adı keçən Sədrəddin Novruzovla bağlı ittihamlara da cavab verib:** "Sədrəddin Novruzova qoyunçuluğun inkişaf etdirilməsi məqsədilə "Qaraqobu" adlanan qış otlaq sahəsindən icarəyə verilən 185 ha torpaq sahəsi Ədalət İsmayılova verilən torpaq sahəsi ilə sərhəddə yerləşir, lakin üst-üstə düşmür".

❑ Xalidə GƏRAY

# Tağı Əhmədov Çovdarovun kamerasına harada yaxalanıb?

## Metropolitenin sabiq rəhbərinin susqunluğu davam edir



Tağı Əhmədov

**Bakı Metropoliteninin eks-rəisi, YAP Yasamal təşkilatının sədri Tağı Əhmədovun ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi Akif Çovdarova 3 milyon manat xərac verməsi məsələsi gündəmdən düşmür. Bugünlərdə T.Əhmədovun odioz generala xərac ötürməsinin daha bir detalı üzə çıxıb. Belə iddialar var ki, ortada Tağı Əhmədovu 3 milyon xərac verməyə sövq edən gizli çəkilən video olub. MTN çetesinin gizli çəkilişlər "ustadı" Akif Çovdarovun əlində olan bu kompromat son nəticədə T.Əhmədovun 3 milyon manatla vidalaşmasına yol açıb. İddia edilir ki, T.Əhmədovdan əvvəlcə 5 milyon tələb olunub, sonra bu məbləğ bir məmurun iştirakı ilə 3 milyona qədər endirilib.**

Şantaj videosunun harada çəkilməsi ilə bağlı da maraqlı iddialar var. Akif Çovdarovun əlində kompromata çevrilən videonun Bakıdakı istirahət mərkəzlərindən birində çəkildiyi bildirilir. Yada salaq ki, "MTN işi" üzrə istintaqın keçmiş nazir Eldar Mahmudovun şəbəkəsinin videoşantaj əməliyyatlarının araşdırıldığı haqda xəbərlər var. İddia ounur ki, istintaqda bəzi məmurların şantajın qurbanı olaraq hələ də şəbəkəyə xidmət göstərmələri ehtimalına yol açan məlumatlar var. Akif Çovdarovdan başqa çete üzvlərindən bir neçəsinin də nəzarətində əyləncə mərkəzləri, hotel və restoranlar olub ki, həmin ünvanlara da gizli videokameralar yerləşdirilib. Bir müddət əvvəl bu mövzuda maraqlı xəbər yayılmışdı. Həmin xəbərdə bildirilirdi ki, Bakıda fəaliyyət göstərən elit hotellərdən bir neçəsinin - "Emerald", "Clear" və "Astoria Baku"nun arxasında Akif Çovdarov dayanıb. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin hazırda həbsdə olan aparat rəhbəri Vidadi Zeynalov isə həmin hotellərə nəzarət edib. Rəsmi olaraq bu hotellər ayrı-ayrı MMC-lərə məxsusdur. Bu hotellərin V.Zeynalova aidiyyətini dolayısı ilə təsdiqləyən məqamlardan biri də Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin balansında olan ərazilərdə yerləşmələridir. Hotellərin icarəçilərə V.Zeynalov tərəfindən təhvil verilməsi haqda da məlumatlar vardı. Ancaq təbii ki, biz Tağı Əhmədovun məhz bu ünvanlardan birində videoşantajın qurbanı olmasını iddia etmirik...

Tağı Əhmədovu digər məmurlardan fərqləndirən cəhətlərdən biri də onun barəsində yazılanlara münasibət bildirməsidir. Maraqlıdır ki, videoşantaj məsələsində Tağı Əhmədov susqunluq nümayiş etdirməyə üstünlük verir.

Bununla belə, T.Əhmədovun mövqeyini dinləməyə, dərc etməyə hazırıq.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 95 (6416) 3 may 2016

**Ermənistan Azərbaycanı növbəti dəfə təhdid edir. Düşmən ölkə son bir ayda cəbhədə darmadağın edildikdən sonra Azərbaycan ordusunun işğal etdiyi əraziləri geri qaytararsa, guya qondarma "DQR"in müstəqilliyinin bir neçə dünya ölkələri tərəfindən tanına biləcəyi barədə fikirlər səsləndirir.**

# Ermənilərin növbəti təhdidi

## Elxan Şahinoğlu: "Düşünmürəm ki, özünə hörmət edən hansısa ölkə bu addıma getsin..."

Politoloq Elxan Şahinoğlu hesab edir ki, Ermənistan Azərbaycanı daim bu məsələdə şantaj edir: "Düşünmürəm ki, özünə hörmət edən hansısa ölkə qondarma rejimi tanısın. İlk növbədə, Rusiya tanımayacaq. Bu ölkə tanımayandan sonra heç bir ölkə risk etməz. Abxaziya və Osetiyanı Rusiya işğal etdikdən sonra bütün dünya ilə danışıqlar aparırdı ki, iki subyektin müstəqilliyini tanısınlar. Amma tanınmayan bir ada sadəcə müstəqilliyi tanıdı. Ermənistan belə tanımadı. Çünki riskli addım olardı. Bu baxımdan düşünmürəm ki, Ermənistanın bu hədəsi də keçərli olsun. Bizim üçün önəmli olan BMT-nin 5 daimi üzvünün mövqeyidir. Onlar da inanmıram ki, bu məsələdə mövqelərini dəyişsinlər. Əksinə, Azərbaycan ərazi bütövlüyünü BMT-də səsverməyə çıxarıb, diplomatik zəmində ermənilərə ciddi zərbə vura bilər".

**Politoloq ermənilərin öz ölkələrinin separatçı rejimi tanımaları üçün dəfələrlə bu məsələni parlamentdə müzakirəyə çıxartdıqlarını da söylədi:** "Amma hər zaman Ermənistan hakimiyyəti bunun qarşısını alıb. Çünki bilirlər ki, qondarma rejimin müstəqilliyini tanısalar, bu, danışıqların bitməsi deməkdir. Nəticədə Azərbaycanın əl-qolu açılacaq və bu yolla torpaqların azad edilməsi gündəmə gələcək. Beynəlxalq aləmin də ölkəmizə təzyiqi olmayacaq. Ermənistan hakimiyyəti bunu yaxşı bilir. Ona görə də Azərbaycanı ermənilərin bu hərəkəti ilə heç bir təhlükə gözləmir. Sadəcə, onların canlarına vəlvələ düşüb. Ona görə vəziyyətdən çıxmaq üçün müxtəlif yollar axtarırlar. Gah deyirlər separatçı rejimin "müstəqilliyi"ni tanıya bilərik, gah Tərtər və Ağdamın mülkü əhalisini atəşə tutacaqlarını deyirlər. Bu yolla 90-ci illərdə olduğu kimi, əhalinin qaçacağını və boş əraziləri tutacaqlarını düşünürlər. Ancaq artıq 90-cı illər deyil. Vətəndaşlarımız heç nədən çəkinmirlər. Ordumuz isə öz mövqelərini qoruyur. Ermənilərin bütün planları alt-üst olub. Onlar şüurca hələ də 90-cı illərdə qalıblar. Biz isə 90-cı illərdəki səhvlərimizdən nəticə çıxarıb, artıq ermənilərin planlarını analiz edə bilirik. İmkan vermək olmaz ki, separatçılar növbəti uğurlarını qazansınlar. Düşmən ölkədə iqtidar-müxalifət münasibətləri kəskinləşib. Strateji müttəfiq olan Rusiya ilə münasibətlərdə xeyli suallar yaranıb. Bütün bunlar, əksinə, lehimizə işləyir".



**Ekspertə görə, erməni cəmiyyətində artıq fikirlər haçalanıb:** "Bir qismi düşünür ki, Qarabağ separatçılarını tanımaq lazımdır, digər qisim isə düşünür ki, Dağlıq Qarabağ ətrafı rayonlardan əllərini üzmək lazımdır. Bu fikri artıq dilə də gətirirlər. Daha bir qisim də var ki, Qarabağın onlara lazım olmadığını düşünür. Düşüncələrin bu şəkildə haçalanmasına strateji yüksəklikləri ələ keçirməyimizlə və onları itkilərə məruz qoymaqla biz şərait yaratdıq. Hər keçən gün onların itkiləri artmaqdadır. Onların potensial qüvvələri yoxdur ki, itirdikləri canlı qüvvəni əvəz edə bilsinlər. Silah-sursat almaq üçün Rusiyadan dilənərək, 200 min dollar istəyirlər. Bu pul döyüş getdiyi müddətdə bir həftənin maddi xərcidir. Bu pul qurtarandan sonra kimdən dilənəcəklər? Ona görə ermənilərin hərəsinin ağzından bir avaz gəlir. Reallığı qəbul edənlərin sayı getdikcə artır. Qarabağ separatçılarının böyük yük olduğunu dərk etməyə başlayıblar. Azərbaycan ordusu uğurlu həmlələr etməyincə, Ermənistanda belə fikirlər yox idi".

**Müsahibimiz Ermənistanın qondarma rejimi tanıyacağı təqdirdə, dünya ölkələrinin buna necə münasibət göstərəcəklərini də açıqladı:** "Qərb ölkələri buna birmənalı etiraz edəcək. Nəticədə Ermənistan Qərbdən bütün dəstəyini itirəcək. Məhz buna görə Ermənistan indiyə qədər bu addımı atmır. Rusiyanın özü də bu prosesi dəstəkləyə bilməz. Rusiyanın Kosovoda fərqli mövqeyi var idi ki, dünya birliyi Kosovanın müstəqilliyini tanımamalıdır, çünki bura Serbiyanın ərazisidir. Orada bir mövqe sərgiləyib, burada başqa cür mövqe ortaya qoya bilməz. Bu da Azərbaycanın xeyrinə işləyir. Qoy tanısınlar, itirəcəyimiz heç nə yoxdur. Əksinə, həm diplomatik, həm də hərbi sahədə imkanlarımızı genişləndirmək üçün münbit şərait əldə edəcəyik".

❑ Cavanşir ABBASLI

# "Qarabağla bağlı icra olunmamış 4 qətnamə BMT qarşısında qaldırılmalıdır"

## Qabil Hüseynli: "Azərbaycan bu məsələni qəti şəkildə tələb etməklə ciddi uduşlar əldə edə bilər"



**Dağlıq Qarabağ məsələsində 22 ildir mövcud olan status-kvonun bundan sonra saxlanmaması və problemin ədalətli həlli üçün Azərbaycanın hərbi gücünü göstərməsi ilə yanaşı, diplomatik savaşda da hücum mövqeyində olması vacib şərtlərdən sayılır. Azərbaycanın diplomatik savaşda hücum mövqeyində malik olduğu silahlardan biri də Birləşmiş Millətlər Təşkilatının (BMT) 1993-cü ildə ard-arda qəbul etdiyi 822, 854, 774, 784 saylı qətnamələr olmalıdır. Bu qətnamələrdə Azərbaycan ərazilərinin işğal olunduğu qeyd olunmaqla yanaşı, erməni silahlı birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması tələbi əksini tapır.**

**Politoloq Qabil Hüseynli** bu mövzuda "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycan bu qətnamələrin indiyədək icra edilməməsi və yaxın zamanlarda icra edilməsi məsələsini BMT qarşısında qaldırmalıdır: "BMT-nin qəbul etdiyi 4 qətnamə-822, 854, 774, 784 saylı qətnamələr Ermənistanın Azərbaycana hərbi təcavüzünü açıq-aydın etiraf edir. Eyni zamanda erməni silahlı qüvvələrinin təcili Azərbaycan ərazilərindən çıxarılması və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi həmin qətnamələrin hər birində vurğulanır. O zaman mən xatırlayıram ki, mərhum prezident Heydər Əliyev həmin qətnamələrin hər birinin geniş şərh edilməsini və ictimaiyyətə çatdırılmasını bizə tapşırırdı. Onun özü də bu məsələnin çox böyük tarixi əhəmiyyətə malik olduğunu və Qarabağ danışıqlarında, diplomatik savaşda bizim əlimizdən tutacağını birmənalı qaydada bildirirdi. Mən şəxsən şahidiyəm ki, Heydər Əliyev ABŞ-a səfərində prezident Bill Klintonla görüşündə, BMT-də çıxışı zamanı BMT-nin həmin o 4 qətnaməsi məsələsini ciddi surətdə qaldırırdı və qətnamələrin yerinə yetirilməsini təkidlə tələb edirdi. Məsələ burasındadır ki, BMT öz qətnamələrinə əməl edilməsinin üzərində ciddi dayanmaq əvəzinə Qarabağ probleminin fələstinləşdirilməsi kimi yanaşmağa başladı. BMT İsrailin Fələstin torpaqlarını işğal etməsinə dair çoxsaylı qətnamələr qəbul edib, həmin qətnamələrin də bir çoxu 10 illərdir yerinə yetirilməyib. Azərbaycan diplomatiyası ciddi şəkildə bu məsələnin üzərinə getməlidir".

**Politoloq vurğuladı ki, BMT-nin Dağlıq Qarabağ problemini öz üzərindən atması və bunu ATƏT-ə tapşırması həmin qətnamələrin icra olunmamasında öz təsirini göstərib:** "BMT guya ATƏT-ə mandat verdi ki, Dağlıq Qarabağ probleminin həll edilməsi ilə bağlı xüsusi bir qrup yaratsın. Belə bir qrup da Minsk Qrupu oldu. Minsk Qrupu da Qarabağ problemini həll etmək əvəzinə on illərlə uzanmasına səbəb oldu. Əslində qətnamədən kənar bir tədbir keçirib Ermənistanı işğalçı dövlət elan etmək lazım idi. BMT Nizamnaməsinin müddəalarında da işğalçı dövlətə qarşı sanksiyalar, bölgəyə BMT-nin sülhməramlı qüvvələrinin yerləşdirilməsi və buna bənzər digər məhdudlaşdırıcı tədbirlər nəzərdə tutulur. Lakin qətnamələrin icra olunmasının üçün BMT-nin prinsipial olmasının şahidi olmadıq. BMT ATƏT-ə mandat verməklə, bütövlükdə bu problemin çözümünü ATƏT-in Minsk Qrupuna tapşırmaqla bir növ yaxasını problemlərdən kənara çəkdi. Bununla da məsələ bu qədər uzandı və gəlib indiki vəziyyətə çatdı. Dağlıq Qarabağ probleminin həlli məsələsinin BMT müstəvisindən çıxarılıb ATƏT-in müstəvisinə keçirilməsi, praktika göstərdi ki, səmərə vermədi. Minsk Qrupu həmsədrlərinin bəziləri faktiki olaraq ermənilərin yanındadır və işğalçı dövləti müdafiə edirlər. Hətta status-kvonun dəyişməsinə və problemin həllinin yaxınlaşmasına mane olan qüvvələr elə ATƏT-in Minsk Qrupunun üç həmsədrindən ikisi-Rusiya və Fransadır".

**Q.Hüseynli qeyd etdi ki, BMT-nin qəbul etdiyi qətnamələrin icrasının vəziyyəti haqqında məsələ ya BMT Təhlükəsizlik Şurasında, ya da BMT Baş Məclisinin sessiyasında gündəmə gətirilməlidir: "Baş Məclis özünün funksiyasına görə ali orqandır. Təhlükəsizlik Şurası isə cari məsələləri idarə etmək üçün operativ surətdə toplanan bir orqandır. Baş Məclis BMT-nin bütün qurumlarına nəzarət etmək səlahiyyətlərinə malikdir. Ona görə də Azərbaycanın torpaqlarının işğal edilməsinin təsdiq olunduğu və işğal olunmuş ərazilərdən erməni qoşunlarının çıxarılması tələbinin əksini tapdığı 4 qətnamənin hələ də yerinə yetirilməməsi məsələsinin BMT Baş Məclisinin növbəti toplantısına çıxarılmasına Azərbaycan diplomatiyası nail ola bilər. Azərbaycan bu məsələni qəti şəkildə qaldırmaqla ciddi uduşlar əldə edə bilər. BMT-də Azərbaycanın tərəfdarları da həddən artıq çoxdur. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına keçici üzvlüyü də orada müdafiə edilib dəstəklənmişdi. Düzdür, BMT Baş Məclisinin növbəti toplantısı hələ sentyabr ayında olacaq, ona qədər məsələnin Təhlükəsizlik Şurasının iclaslarının birində gündəliyə salınmasını gündəliyə çıxarmaq olar.**

Dünyada sülhün və təhlükəsizliyin keşiyində dayanan BMT-dir. Dünyanın ən böyük beynəlxalq təşkilatının Qarabağla bağlı 4 qətnaməsinin dördü də Ermənistanın təcavüzkar olduğunu və Azərbaycanın torpaqlarını işğal etdiyini isbatlayan faktlarla doludur. Ona görə də biz Dağlıq Qarabağ probleminin BMT-nin 4 qətnaməsi və beynəlxalq hüquq çərçivəsində həll edilməsini irəli sürürük. Azərbaycan diplomatiyası hər dəfə vurğunu ayrı-ayrı dövlət başçılarının subyektiv mülahizələrinə yox, məhz BMT-nin məlum 4 qətnaməsində qeyd olunanlara, eyni zamanda beynəlxalq hüquqa vurmalıdır. Azərbaycanın diplomatik savaşda BMT qətnamələrini önə çəkməsi və bu qətnamələrin icrası məsələsini BMT qarşısında qaldırması Ermənistan üzərində diplomatik müstəvidə də qələbə çalmamızda çox ciddi amil ola bilər".

❑ Etibar SEYİDAĞA

# "Bulaq"dakı atışmanın səbəbi bilindi

## 21 nəfər tutulub, 48 nəfər 15 sutkalığa göndərilib

**Aprelin 21-də Bakının Badamdar qəsəbəsindəki "Bulaq" restoranında atışma qeydə alınmışdı. İlkin məlumatlarda qeyd olunurdu ki, restoranın müştəriləri arasında iri məbləğdə pul üstündə mübahisə olub. İnsidentin iştirakçıları restorana məhz bu məsələnin müzakirəsi üçün toplaşıblar. Samir adlı qonaq söhbətə odlu silahla gəlib. Və elə restoranın həyətində atəş açmağa başlayıb. Nəticədə bir neçə nəfər yaralanıb.**




"Yeni Müsavat"a daxil olan məlumata görə, hazırda həbsdə olan Samir Allahyarovu restorana iş adamı Tofiq Qaramizadə çağırıb. Buna səbəb isə özünün hədələnməsi olub. Onu restorana dəvət edənlər biznesindən ayda onlara müəyyən məbləğ vermələrini tələb ediblər. T.Qaramizadə isə S.Allahyarovu ora söhbəti davam etdirməyə, tələbin rədd edilməsində ona yardımçı olmağa çağırıb. Nəticədə atışma düşüb, söhbətin bir neçə iştirakçısı yaralanıb, güllələrdən biri ABŞ-ın Azərbaycandakı səfirinin müavini Derek Hoqanın maşınına dəyib. Amma xoşbəxtlikdən maşının sürücüsünə xətər toxunmayıb. Olaydan sonra Samir Allahyarov polisə gedərək könüllü təslim olub. Hazırda Bakı Şəhər Prokurorluğu tərəfindən araşdırma aparılır. Hüquq-mühafizə orqanları keçirdikləri əməliyyat zamanı biləvasitə "razborka"da iştirak etmiş Sabunçu qəsəbəsi sakinləri - 1983-cü il təvəllüdlü Namiq Xabulla oğlu İbayev, 1985-ci il təvəllüdlü Kamil İsrafil oğlu Quliyev, 1980-ci il təvəllüdlü Orxan Rəfail oğlu İbrahimov və 1981-ci il təvəllüdlü Namiq Ağacan oğlu Həşimov saxlanılıblar. Hüquq-mühafizə orqanlarına yaxın mənbədən "Yeni Müsavat"a daxil olan xəbərə görə, ümumilikdə iş üzrə 21 nəfər həbsə alınıb, ittiham elan olunaraq təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilib. Olayda iştirak etmiş şəxslərin yaxın əhatəsinə daxil olan 48 nəfər isə inzibati qaydada 10-15 sutkalığına həbsə alınıblar.

Olaydan sonra "Bulaq"dakı atışmanın kriminal aləmin iki nüfuzlu siması - "Lotu Quli" kimi tanınan Nadir Səlifov və "Rövşən Lənkaranski" kimi tanınan Rövşən Canıyevin tərəfdarları arasındakı "razborka" olduğu haqda xəbərlər də dolaşırdı. "Lotu Quli"nin yaxın atrafına aid olan şəxslərin virtualaz.org-a verdikləri məlumata görə, nə "Bulaq" restoranında atəş açanın, nə də sonradan saxlanılan şəxslərin Nadir Səlifova heç bir aidiyyəti yoxdur. Kriminal avtoritetin yaxın dairəsində belə hesab edirlər ki, bu cür şayiə yayanlar və onun adını hallandıranlar bununla Nadir Səlifovun Gürcüstana gözlənilən ekstradisiyasını əngəlləmək və onunla «Rövşən Lənkəranski» arasında qarşıdurma yaratmaq istəyirlər. Məlum olduğu kimi, Nadir Səlifov Gürcüstan vətəndaşıdır və uzun müddətdir ki, ora ekstradisiya olunmaq istəyir. Kriminal avtoritetin yaxın ətrafına aid şəxslər də bildirirlər ki, "Lotu Quli" Azərbaycanda heç bir fəaliyyət göstərmir və onun yeganə istəyi vətəndaşı olduğu Gürcüstana ekstradisiya edilməsinə nail olmaqdır.

❑ E.MƏMMƏDƏLİYEV

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01**

**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**
**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**
**Əlaqə nömrəsi (050) 264 49 99**



## Elza Tovuzda döyülməsi iddiasına cavab verdi

### "Bir sərxoş dedi ki, bu, Mixaylodur?"

**Bu günlərdə sosial şəbəkələrdə bəstəkar-müğənni Elza Seyidcahanın Tovuzda döyüldüyü barədə məlumatlar yayılıb. Məlumata görə, hadisə Tovuz rayonunun Qovlar kəndində yerləşən restoranların birində, toy məclisində baş verib. Müğənninin döyülməsinə səbəb isə tez-tez mikrofona Tovuzda xoş qarşılanmayan "toş-toş" sözünü deməsi olub.**

Məsələ ilə əlaqədar Elza Seyidcahanla əlaqə saxladıq.

Musavat.com-a danışan müğənni sonuncu dəfə Tovuzda nə zaman olduğunu xatırlamadığını dedi: "Haqqımda nə yazdıqları məni maraqlandırmır. Bu barədə danışmaq istəmirəm. Axırıncı dəfə heç yadıma gəlmir ki, Tovuzda nə vaxt toyda olmuşam. Məni niyə döyməlidirlər? İnsanlar canlarını, başlarını mənim yolumda verməyə hazırdılar. Şükür Allaha, mən bunu qazanmışam. Bunu yazanlar yəqin ki, cəzalarını tapar. Məni belə şeylər maraqlandırmır, bu haqda danışmaq istəmirəm. Bu an mənim böyük layihələrim var. Onlar haqqında danışa bilərəm".

**Bəstəkar-müğənni heç bir zaman toylarda xoşagəlməz hadisə ilə rastlaşmadığını dedi:** "Elza Seyidcahanı sərxoş adamlar görəndə ayılırlar, özlərini yığışdırırlar, o ki qaldı ağlı başında olan adamlar... Sərxoş adamlar məni görəndə ayılır və gözlərinə inanmırlar. Bir dəfə bir məclisdə olmuşduq. Bir sərxoş qaça-qaça gəlib, dedi ki, "Bu, Mixaylodur?" Yəni gözlərinə inanmırdı ki, qarşısındakı Elza Seyidcahandır. Damla-damla qazandığım məhəbbətə görə, əlbəttə, xalqımıza borcluyam ki, pisi yaxşıdan, ağı qaradan ayırmağı bacarır".

❑ Xalidə GƏRAY

## Keçmiş məhkumu evində öldürdülər

**Bakıda qətl törədilib. Musavat.com-un məlumatına görə, hadisə Yasamal rayonu ərazisində, Vasif Əliyev küçəsində baş verib. Əvvəllər məhkum olunmuş 41 yaşlı Mirzə Hüseynovun meyiti tək yaşadığı evdə aşkarlanıb. Meyiti qonşular tapıblar və bu barədə hüquq-mühafizə orqanlarına məlumat veriblər. Mirzə Hüseynovun meyiti üzərində kəsilmiş-deşilmiş xəsarətlər aşkarlanıb.**

Qeyd edək ki, 41 yaşlı Mirzə Hüseynov Masallı rayon sakinidir. Qohumlarının musavat.com-a verdikləri məlumata görə, Mirzə Hüseynovun yaşadığı evdə kim tərəfindən qətlə yetirildiyi məlum deyil. Onun əvvəldən kimlərləsə ədavətinin olduğu ehtimal edilir.

## Bakıda və Gəncədə iki dəhşətli cinayət; ər arvadının boğazını kəsdi

**Mayın 2-də səhər saatlarında Bakıda da ailə məişət zəmnində qanlı hadisə baş verib. Admiral.az-ın məlumatına görə, hadisə saat 07 radələrində Suraxanı rayon, Hövsan qəsəbəsində qeydə alınıb.**

Qəsəbə sakini, 45 yaşlı Eldəniz Yusifov həyat yoldaşı Yusifova Ceyhunə Şükür qızını bıçaqlayıb. Kişi arvadının boynunu kəsib. Daha sonra özünü vurub.

Hadisə nəticəsində hər iki şəxs ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib. Həkimlər qadının səhhətinin daha ağır olduğunu bildirirlər.

Müstəntiq Şamil Şəmmədli admiral.az-a bildirib ki, hazırda məsələ araşdırılır. Hər iki şəxsin vəziyyəti ağır olduğu üçün onları dindirmək mümkün olmayıb.

Qeyd edək ki, analoji hadisə Gəncədə də baş verib. Şəhər sakini, 1969-cu il təvəllüdlü Rəfiqə Musayeva boğazı kəsilmiş və kürək nahiyəsinin kəsilmiş-deşilmiş xəsarəti ilə Gəncə şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilib. Əməliyyat edilən qadının vəziyyəti ağır qiymətləndirilir. Məlumata görə, R. Musayevanı həyat yoldaşı münaqişə zəminində bıçaqlayıb.

Yeni MÜSAVAT
N 95 (6416) 3 may 2016

# Mayda toy etməkdən çəkinməyin...

**Astroloq Firudin Qurbansoy:** "Bu ayda evlənənlər dünyaya qəşəng uşaq gətirirlər"
**Psixoloq Dəyanət Rzayev:** "Bunu insanların başından çıxartmaq çətin məsələdir"



**"May ayında toy etməzlər", "May boş aydır", "Bu ayda evlənənlərin sonu olmur" kimi "məsləhətlərlə" yəqin ki, toy etmək istəyən hər kəs qarşılaşıb. Xüsusən də orta və yaşlı nəsil nümayəndələrinin bu tövsiyələrinin əslində heç bir elmi, tibbi əsası da yoxdur, batil bir inancdır. Buna baxmayaraq, keçmişdən bu günümüzə qədər gətirilən bu qəribə ənənəyə bu gün də çoxları əməl edir. May ayı ərzində tək-tək adamlar olar ki, toy etsinlər.**

Maraqlıdır, bu inancın kökü haradan gəlir? Niyə may ayında toy etmək olmazmış? Bunun Azərbaycana, İslama bir aidiyyəti varmı?

Belə iddialar da var ki, guya ermənilərin qondarma soyqırımından sonrakı ay may ayına düşdüyündən - onlar mayda da yas saxlayıb toy etməyiblər. Sovetlər dönəmində isə bu kütləvi hala çevrilib. Bir başqa mənbələrdə deyilir ki, xristian ayinlərinə görə, may ayı ağır ay kimi qiymətləndirilir. Maraqlı burasıdır ki, əgər lap belədirsə, sovet imperiyası dağıldıqdan sonra niyə biz hələ də bu, ənənəni yaşadırıq?! May ayında toy edilməməsinin bir səbəbini də may ayında yağışların çox olması ilə əlaqələndirirlər və bu dövrü təbiətin ağlayan dövrü adlandırırlar. Təbiət ağlayarkən şadlıq etmək olmazmış. Bəzi mənbələrdə isə bu adətin köklərinin Qədim Romaya gedib çıxdığı deyilir. Bəzi fikirlərə görə, "may" sözü "Maius" latın sözündən götürülüb. Bu söz isə öz kökünü qədim Romada "Mayi ilahəsi"nin adından götürüb. Başqa bir versiyada isə deyilir ki, Qədim Romada may ayında "Lemuriya" deyilən tədbir keçirilirdi. Bütün ay ərzində məbədlər bağlanır, camaat ölənlərini yada salır, dua oxuyur, məclislər verirdilər. Kəbin kəsilməsi və toylar məbədlərdə keçirilirdi. Bu mərasimlə əlaqədar may ayında toylar keçirilmirdi. Bəzi ekspertlər isə may ayında toy olmamasının səbəbini yasəmənin çiçək açması ilə izah edir. Yasəmən gülü isə uğursuzluq gətirir...

Maraqlıdır, may ayının uğursuz bir ay olduğunu sübut edən hansısa psixoloji, astroloji əsas varmı?

**Astroloq Firudin Qurbansoy bunun başqa xalqların batil inancları olduğunu dedi:** "Bunun yeni düşüncə tərzimizə, əxlaqımıza qətiyyən dəxli yoxdur. Bu, sırf insanlarla bağlıdır. Qədim yunanların kökləri ilə bağlı bir düşüncədir. May ayı qədim Misirlə bağlı bir vaxtdır. Ona görə də qədim zamanlarda dediyim ərazilərdə toy eləmirdilər. Toy edəndə bolluq olmalıdır. Ona görə də onlar həmin vaxtlarda toy eləmirdilər. Çünki bütün ərzağı yeyib qurtarmış olurdular. Bu səbəbdən də toyları əsasən sentyabr ayında edirdilər. Bu ənənə bütün xristian aləminə yayılmışdı. Ruslar vasitəsilə gəlib bizə də çatmışdı. Əslində may ayı buğa bürcünə düşür. Bu ayda evlənənlər dünyaya qəşəng uşaq gətirirlər. Mən insanlara məsləhət bilərdim ki, mənasız inanclara uymasınlar. May ayında toy eləmək əslində xeyir gətirər, nəinki ziyan. Belə bir inanc da var ki, guya may ayında evlənənlər axırda peşman olurlar. Bu boş bir deyimdir. Bizim xalqımız başqa xalqların batil inanclarına uymasınlar və may ayında toy etsinlər".

**Psixoloq Dəyanət Rzayev bu düşüncəni insanları başından çıxartmağın çətin məsələ olduğunu dedi:** "Bu ənənə Azərbaycana aid deyil. Biz sovet məkanında rusların tərkibində yaşamışıq. Bu söz də ruslarda "mayetsa", yəni avaralanmaq mənasındadır. May ayı da "avara ay" sayıldığına görə bu ayda toy etmirdilər. Biz də bunu özümüzə təlqin etmişik. Amma bu absurd bir şeydir. Halbuki may ayı toylar üçün çox yaxşı ay olardı. Bunu insanların başından çıxartmaq çətin məsələdir. Bəlkə kimlərsə inanmır belə şeylərə. Amma öz-özünə düşünür ki, birdən mayda toy edər, camaat gəlməz, "nə deyərlər" kimi yanaşmalar yaranır. Mənə elə gəlir ki, bir neçə nəfər mayda toy etsə, gələcəkdə bu geniş tendensiya halını alacaq. Kütləvi informasiya vasitələri bu istiqamətdə maarifləndirmə işi aparmalıdır".

Yeri gəlmişkən, müxtəlif xalqlarda bundan başqa bu günümüzə qədər gəlib çıxan toyla bağlı digər batil inanclar da mövcuddur. Məsələn, iki bacının iki qardaşla evlənməsinin həmişə uğursuzluq gətirdiyi düşünülürdü. Bəziləri gəlinin və ya bəyin öz ad günündə evlənməsinin də uğursuzluq gətirəcəyinə inanırlar.

Meksikada isə belə bir inanc var: gəlin toy günündə mirvari taxsa, evliliyi boyunca ağlayacaq, çünki mirvari göz yaşlarının işarəsidir.

Bolqar dağının ətəklərində belə bir inanc mövcuddur: nişanlanacaq oğlan qız evinə gəldikdə evlilik həyatı uğurlu olsun deyə qızın qardaşları tərəfindən döyülərmiş.

Yaponiyada nə gəlin, nə də bəy evliliyin qısa sürməsini istəmədiyi müddətdə bənövşəyi rəngli geyimdən istifadə etmir.

Braziliya, Meksika, Kolumbiya və daha bir çox yerdə bəyin gəlini toydan əvvəl görməsinin gəlinə şanssızlıq gətirəcəyinə inanılır.

Türkiyədə isə gəlin ayaqqabısının altına rəfiqələrinin adını yazır, bu adlardan hansı silinsə, onun qısa zamanda evlənəcəyinə inanılır.

❑ **G.MANAFLI**

# Gün eynəkləri insanları kor edə bilər

## Saxta gün eynəkləri katarakta, sarı nöqtə və göz əti kimi xəstəliklərə səbəb olur...





**Gün eynəklərinin mövsümü başlayıb. Ultrabənövşəyi şüaların miqdarı qışa nisbətdə üç dəfə artıq olduğu üçün dərini və gözləri gündən qorumaq vacibdir. Hazırda optik mallar satışı ilə məşğul olan mağazalarda və ticarət mərkəzlərində istənilən qiymətə gün eynəyinə rast gəlmək mümkündür. Gün eynəyi alarkən onun keyfiyyətindən çox üzümüzə yaraşıb yaraşmaması ilə maraqlanırıq. Halbuki yanlış seçilən eynək bizi günəş şüasından qorumur, əksinə, gözlərimizə zərər verir.**

Gün eynəklərini əsasən üç qrupa ayırırlar. Kosmetik, gündən qoruyan adi və çox yüksək müdafiəli eynəklər. Qeyd edək ki, yanlış seçilən gün eynəyi sağlam gözlərinizi xəstə edə bilər. Mütəxəssislərin dediyinə görə, gözün günəş şüaları ilə birbaşa kontaktda olması katarakta, sarı nöqtə və göz əti kimi xəstəliklərə səbəb olur. Belə ki, saxta eynəklər gözləri qorumur, əksinə, gözdə qalıcı fəsadlara səbəb olur. Ona görə də eynək seçərkən mütləq keyfiyyət testindən keçirilməli və ya sertifikat tələb olunmalıdır. Bu gün paytaxtda satılan eynəklərin əksəriyyətinin testdən keçirilməsi üçün heç bir şərait yoxdur. Sertifikat tələb etdikdə isə əksər satıcılar bunu təqdim edə bilmirlər.

**Paytaxtda ucuz qiymətə gün eynəkləri satılan bir neçə mağazaya baş çəkdik. "28 May" metro stansiyasının keçidində yerləşən mağazanın satıcısı gün eynəklərinin 7-10 manat arasında olduğunu bildirdi. Satıcı bu eynəklərin sertifikatı olmadığını və Çindən gətirildiyini dedi:** "Ola bilər ki, orijinal eynək deyil. Ancaq alıcıları var. Daha çox xanımlar bu eynəklərdən alır. Onlar da çox vaxt gözlərinə yox, başlarına aksesuar kimi taxırlar".

Söhbətimizin bu yerində mağazaya bir alıcı daxil odu və özünə iki ədəd eynək seçdi. Alıcıdan aldığı eynəyin onun gözünə ziyan olduğunu bilib-bilmədiyini soruşduq. Alıcı isə "ziyan olsa da olmasa da mən alıram. Ziyanını hiss etmirəm. Mənim bahalı brend orijinal eynəklər almağa imkanım yoxdur. Kimin gücü nəyə çatırsa onu da alır" dedi.

**Daha sonra yolumuzu bahalı, brend eynəklərin satıldığı iki ünvandan - Nizami küçəsindəki və «Metropark»dakı mağazalardan saldıq. Burada ən ucuz eynəyin qiyməti 70 manat, ən bahalısı isə 300 manat idi. Düzdür, bu mağazalarda alıcı az olsa da var idi. Satıcı Elmin Əliyev insanların bilə-bilə gözlərinə zərər verdiyini dedi:** "Satdığımız eynəklərin hər birinin sertifikatı var. Düzdür, bahadır deyə alan az olur. Amma alıcılar unutmasınlar ki, ucuz eynək alıb, sonra gözlərinin müalicəsinə nə qədər pul tökürlər".

Alıcı Rüstəm Quliyev ucuz eynək taxdığına görə gözlərinin zəiflədiyini dedi: "Əvvəl mən də puluma qıymırdım ki, mövsümlük ucuz eynək alım, keçinim. Ancaq bu eynəklər mənim gözlərimi pis hala saldı. İndi də gəlmişik ki, baha da olsa oğluma da buradan eynək alım".

Qeyd edək ki, baş çəkdiyimiz heç bir eynək mağazasında oftolmoloq yox idi. Halbuki bütün ölkələrdə eynək satılan yerlərdə oftolomoloqlar fəaliyyət göstərir və o, insanların gözlərini yoxladıqdan sonra uyğun eynəyi verirlər.

Maraqlıdır, ümumiyyətlə gün eynəklərinin tarixi nə vaxtdan başlayır? Bəs qədim dövrlərdə keyfiyyətli eynəkləri necə seçiblər?

Suallarımıza cavab tapmaq üçün internet üzərindən kiçik bir araşdırma apardıq. Məlum oldu ki, ilk dəfə günəş şüalarından qorunmaq fikri qədim Roma dövrünə qədər gedib çıxır. İmperator Neron gözü şüadan qorumaq və narahatedici işıqların qarşısını almaq məqsədilə ilk dəfə zümrüddən linza istifadə edib. Gözlüyün əsas hissəsi olan optik şüşənin tarixi isə 4500 il əvvələ gedib çıxır. Əldə olunan məlumatlara görə, ilk eynək 1280-cı illərdə İtaliyada hazırlanıb. Başqa bir iddiaya görə, 1287-ci ildə Florensiyada Armati adlı bir rahib teleskop üçün eynək icad edib. Bu icaddan sonra Alessandro Della Spina adlı rahib tərəfindən eynək modelləri yaradılır. Lakin o eynəklər indiki modellərdən tamamilə fərqli idi. İlk eynəklər dəstəksiz idi. Dəstəkli eynəklər isə yalnız XV əsrdə ixtira olunub. Hazırda istifadə etdiyimiz dəstəkli eynəklər XVIII əsrdə İngiltərədə meydana çıxıb. Edvard Skarlet 1730-cu ildə Londonda sabit, dəstəkli eynək icad edib. XIX əsrin ikinci yarısında isə qulağa keçirilən eynəklər satışa çıxarılır. 1930-cu illərdə eynəklər pişik gözü formasında istehsal olunur. "Pişikgöz" günəş eynəkləri əslində bayquşun gözlərindən ruhlanaraq ərsəyə gəlib. Daha sonra marketinq texnikası inkişaf etdirilərək çərçivəsində dəyişikliklər aparılıb...

Jalüz tipli eynək modelinin tarixi də 1950-ci illərə aiddir. Jalüzdən ruhlanaraq hazırlanmış bu günəş eynəyi hələ də bəzi yerlərdə istifadə edilir və populyarlığını itirməyib. 60-cı illərdə böyük çərçivəli eynək trendi aktuallığını itirir. Buna səbəb hippi tərzinin populyarlaşması idi. Lakin kiçik çərçivəli eynəklər populyarlığını çox tez itirir. 70-ci illərin sonlarında günəş eynəklərinin şüşələri bir az daha böyüdülür. 80-ci illərdə qəşəng və klassik, daha minimalist, kvadrat dizaynlı eynəklər bazara çıxarılır. 90-cı illərdə böyük çərçivəli, pişik gözlü, həmçinin aynalı eynəklər dəbə minir.

Rəngli çərçivə eynəklər isə 2016 yaz/yay mövsümündə xanımlar üçün dəbdə olacaq.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 95 (6416) 3 may 2016



# Uşaqlarınızı döysəniz, bu xəstəlikləri tapacaqlar

**Əgər uşaq döyülərsə, gələcəkdə onda xərçəng, ürək və astma xəstəliklərinin inkişaf edəcəyi istisna edilmir. Böyük Britaniyanın Plimut Universitetinin bir qrup alimi bu fikirdədir.**

Ekspertlərin fikrincə, fiziki təsir və ya qışqırmaq nəticəsində yaranan güclü stress uşağı xəstəliklərə meylli edə bilər. Həmçinin uşaqlıqda fiziki və ya seksual zorakılığa məruz qalmağın xroniki xəstəliklərə səbəb olduğunu güman etməyə əsas vardır.

Ekspertlər Səudiyyə Ərəbistanında sağlamlığından şikayəti olmayan 250 nəfər yaşlı şəxs arasında sorğu aparmışlar. Alimlər onların uşaqlıq illəri ilə maraqlanıblar. Habelə 150 ürək, 150 xərçəng və 150 astma xəstəsi arasında da sorğu aparılıb.

Tədqiqatçılar könüllülərin uşaq yaşlarında nə qədər tez-tez döyülmələri və ya təhqir olunmaları ilə maraqlanıb. Məlum olub ki, xərçəng xəstəsi olan şəxs uşaqlıqda 70 faiz daha çox zorakılığa məruz qalıb. Ürək xəstəlikləri bu ehtimalın 30 faiz artımına, astma isə 60 faiz uyğun gəlib. Universitetin Psixologiya məktəbinin professoru Maykl Hiland əmindir ki, gənc yaşda alınan belə mənəvi zədələr insanın həyatında həmişəlik iz qoyur.

Beləliklə, tədqiqat döymənin tərbiyə üsulu kimi işə yaramadığını göstərib.

# Ər arvadına vəsiyyət etdi: "Mən öləndən sonra ancaq səyahət et!"

**Amerikalı Li Voçtstetter adlıq qadın ərinin ölümündən sonra 7 ilini kruizdə keçirib. Bu barədə lenta.ru saytı "The Daily Mirror"a istinadən xəbər verir. Qadın 1997-ci ildə ərinin ölümündən sonra Floridadakı evini satıb, mərhumun "heç vaxt kruizi dayandırma" vəsiyyətindən sonra hər il səyahətə 160 min dollar sərf edir. Səyahət zamanı qadın 100-dən çox kruizdə olub. 86 yaşlı qadın deyib ki, onu daha çox Asiya ölkələri cəlb edir. Çünki ordakı həyat ABŞ-dakından qat-qat yaxşıdır. Qadının ən çox sevdiyi ölkə isə Türkiyə olub. O, hər dəfə İstanbula gedəndə "Qapalı çarşı"ya baş çəkib maraqlı geyimlər alır. Dediyinə görə, geyim məsələsində hər zaman özünə qırmızı işıq yandırır. Çünki çox paltar alarsa, kayitda onu saxlamağa yeri olmur. 86 yaşlı qadın bu səyahətlər zamanı daha çox nəvələri və üç uşağından ötrü darıxır. O, əzizləri ilə internet vasitəsilə əlaqə saxlayır.**



# Avtomobil qəzası keçirməsəydi, hamilə qala bilməyəcəkdi

**43 yaşındakı fransız qadın Keyt Mansbricin başına qəribə hadisə gəlib. Onun 27 yaşında erkən menopoza girdiyi üçün ana ola bilməyəcəyi aşkarlanıb. "Daily Mail"in xəbərinə görə, qadın bir neçə il sonra Fransada velosiped sürərkən bir maşınla toqquşub və ayaqları əzilib, beynində travma yaranıb, bir daha gəzə bilməyib. Həkimlər bundan sonra onun ancaq əl arabasında gəzə biləcəyini deyiblər. Amma hardasa möcüzəni xatırladan bir hadisə baş verib, qəza nəticəsində adrenalin artımı doğuş hormonlarını tətikləyib və Keytdə yenidən menustrasiya dönəmi başlanıb. Mütəxəssislər isə deyiblər ki, travma çox nadir görülən kimyəvi dəyişikliklərə səbəb olur. Amma möcüzəvi bir şey meydana gəlib. Qəzadan 3 il sonra qadın hamilə qalıb. Bununla da Keyt həyatının ikinci şokunu yaşayıb. Tibb bacısı olan Keyt deyib ki, bir tərəfdən həyatının ən pis hadisəsi baş versə də, digər tərəfdən möcüzə bir uşağa sahib olub. Keytin qızı hazırda 6 yaşındadır. O, Rubi ilə xoşbəxt bir həyat yaşayır və qəzaya görə Allaha minnətdardır.**





# 10 dollar ödə, adını qadının bədəninə yaz...

**Cəmi 10 dollar ödəyəcək hər kəs adını bu qadının bədəninə yazdıra bilər. ABŞ-ın Los-Anceles şəhərində yaşayan 22 yaşlı İllma Qorçox ekstravaqant qəribə layihəni həyata keçirir. O, bədəninə 2500 adamın adını tatuaj etdirmək niyyətindədir.**

Adının və ya ləqəbinin İllmanın bədəninə döymə formasında yazılmasını istəyən şəxs bunun üçün 10 dollar ödəməlidir.

Naxış və ya vizual konstruksiyanı tatuaj formasında İllmanın bədənində görmək istəyənlər isə 80 dollar verməlidirlər.

Kickstarter portalında layihəsi ilə bağlı elan verərək ttps://www.kickstarter.com/projects/1027452443/mission-to-tattoo-my-whole-body "işi reallaşdırmaq üçün" 6 min dollar gərəkdir" yazmış İllmanın layihəsinə artıq 469 nəfər pul ayırıb və bu minvalla 11072 dollar toplanıb.




**QOÇ** - Yalnız saat 12-14 arası gərgin keçə bilər. Qalan saatlarda iştirakçısı olduğunuz bütün proseslər zövqünüzlə vəhdət təşkil edəcək. Axşama yaxın sevindirici xəbərlər eşidəcəksiniz.

**BUĞA** - Bir neçə amillə rastlaşacaqsınız ki, bu da saat 15-ə qədər ovqatınızda mənfi çalarlar yaradacaq. Odur ki, maksimal səbr nümayiş etdirməlisiniz. Bu gün çox pul xərcləməyin.

**ƏKİZLƏR** - Fəaliyyət sahəsində müəyyən irəliləyişlərə nail olmaq üçün ulduzlar sizə şans yaradacaq. İkitərəfli sövdələşmələrin uğurlu olacağını nəzərə alıb aktivliyinizi artırın.

**XƏRÇƏNG** - Saat 13-ə qədər vaxtınızı qalmaqalsız başa vura bilsəniz, sonrakı müddətdə hər hansı problemləriniz olmayacaq. Şəxsi büdcənizi artırmaq üçün münbit şəraitdən bəhrələnin.

**ŞİR** - Maliyyə məsələlərində çətinliyiniz olsa da, qarşılıqlı münasibətlər zəminində işləriniz qaydasında gedəcək. Ailə-sevgi münasibətləri isə daha romantik müstəviyə keçəcək.

**QIZ** - Maraqlı hadisələrin iştirakçısı olacaqsınız. Bu enerjini xeyirxah işlərə yönəltməyə çalışın. Çünki indi savab qazanmaq qarşınızda bağlı qalan qapıların açılmasına zəmin yaradacaq.

**TƏRƏZİ** - Göy qübbəsi şəxsi işlərinizdə böyük dönüş yaranacağından xəbər verir. Perspektivlərinizi reallaşdırmağa can atın. Yalançı həmkarlarınızdan uzaqlaşmağa çalışın.

**ƏQRƏB** - Neçə müddətdən bəri ləng inkişaf edən maliyyə işləriniz bu gündən başlayaraq qaydasına düşəcək. Bu istiqamətdə sizə kənardan da dəstək olacaq. Axşam qonaq getməyə dəyər.

**OXATAN** - Ulduzlar yeni və sevindirici hadisələrin iştirakçısına çevriləcəyinizdən xəbər verir. Bu siyahıya işgüzar əlaqələr və tanışlıqlar da aiddir. Amma riskdən uzaq olmalısınız.

**OĞLAQ** - Günün əsas hissəsini maraqlı tərzdə başa vuracaqsınız. Amma yaxşı olardı ki, nahardan sonra işə ara verib bir qədər dincələydiniz. Çünki axşam saatlarında astral bədəniniz zəifləyə bilər.

**SUTÖKƏN** - Təəssüf ki, bu təqvim bürcünüz üçün hansısa uğur vəd etmir. Bu səbəbdən də əsas diqqətinizi səhhət və mənzillə bağlı problemlərin həllinə yönəltməlisiniz. Qeybət və yalandan uzaq olun.

**BALIQLAR** - Sizə qarşı qərəzli çıxışlar gözlənilir. Əgər bədxah adamlarla baş-başa gəlmək iqtidarında deyilsinizsə, onda belələrindən vaxtında uzaqlaşın. İmkan olsa, nahardan sonra səfərə çıxın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Siqaret çəkəndə özünü yandırdı



**Adanada 78 yaşındakı bir kişi yatağında siqaret çəkdiyi zaman özünü yandırıb. Bu hadisədən 16 gün sonra kişi xəstəxanada dünyasını dəyişib. Hadisə oktyabrın 19-da, Adananın 19 May məhəlləsində baş verib. Sezal Acil adlı qoca siqaretdən heç cür vaz keçə bilmədiyi üçün yataqda da siqaret çəkib. Amma bir müddət sonra siqareti yatağının içinə düşüb. Acil yataq xəstəsi olduğu üçün yerindən tərpənə bilməyib. Həmin vaxt evdə kimsə olmadığı üçün yardıma da heç kimi çağıra bilməyib. Nəticədə Sezai Acilin yatağı da od tutub yanıb. Acil bir müddət yanandan sonra evə gələn uşaqları tərəfindən xilas edilib. 1-ci dərəcəli yanıq xəsarəti alan qoca 16 gün sonra dünyasını dəyişib.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750